*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

21 dekabr 2024-cü il №47 (9105) www.muallim.edu.az muallim@media.edu.az

# AZƏRBAYCAN D-8 TƏŞKİLATINA ÜZV QƏBUL EDİLİB

## Prezident İlham Əliyev Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm.

Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir.

Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki, fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu, bizim üçün qürur mənbəyidir.

Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, İslam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir".



## İstər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir

Xarici siyasətinin xüsusiyyətlərinə görə istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda, həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir.

Türkiyə ilə biz hər il 10-dan çox birgə təlim keçiririk - yarısı Azərbaycanda, yarısı Türkiyədə və mahiyyətcə hərbi əməliyyatların yüksək dərəcədə keçirilməsinə nail olmuşuq. Təbii ki, bu, Qafqazda sabitliyin mühüm amilidir.

Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır. Nəzərə alsaq ki, Ermənistanla sərhədimizin uzunluğu min kilometrdən çoxdur, bir çox yaşayış məntəqələri sərhədə yaxın yerləşib və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlər qayıdırlar, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik. Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır.

Erməni tərəfinin həyata keçirməli olduğu daha iki məqam var. Birincisi, öz Konstitusiyasını dəyişməkdir. Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik Bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ muxtar vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də Konstitusiyanın dəyişdirilməsi bizim istəyimiz deyil, sadəcə obyektiv şərtdir. Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir.

Ermənistandan gələnlərin icması var, onlar 1980-ci illərin sonunda - 1990-cı illərin əvvəlində deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır. Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib.

...Biz iqlim mövzularına illik xərclərin məbləğini razılaşdıra bildik. Bu məbləğ 300 milyard dollardır. Məqsəd trilyon idi. Amma aydın idi ki, trilyonu verməyə hazır deyillər. Lakin onu nəzərə alsaq ki, bundan əvvəlki razılaşdırılmış rəqəm 100 milyard idi, burada isə 300 oldu, bunu uğursuzluq adlandırmağa dilim gəlmir.

*Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsindən*

# Təhsil Qarabağa qayıdır



Xankəndi və Xocalıda yeni uşaq bağçaları fəaliyyətə başlayıb

Bax səh. 5

# "Azərbaycan məktəbi" təhsilin inkişafında mühüm rol oynayıb

Bax səh. 4

"Azərbaycan məktəbi" jurnalının 100 illik yubiley tədbiri keçirilib

## YAŞILLAŞAN

# UNİVERSİTETLƏRİMİZ DÜNYA REYTİNQİNDƏ



Universitetlər davamlı inkişafa necə töhfə verə bilər? Ali təhsil müəssisələrinin ölkənin yaşıl konsepsiyasında rolu nədir? Bu suallar bütün dünya ölkələrindən olan universitetlər üçün konseptual əhəmiyyət daşıyır. Dekabrın 13-də dünya ali təhsil müəssisələrinin davamlı inkşafa töhfəsini ölçən "UI GreenMetric World University Rankings " tədqiqatının 2024-cü il üçün növbəti tədqiqatının nəticələri məhz bu suallara cavab verir. İndoneziya Universiteti tərəfindən 2010-cu ildə universitet kampuslarının davamlılığı səylərini ölçmək üçün hazırlanan tədqiqatın arayış hissəsində qeyd olunur ki, builki 15-ci nəşr 95 ölkədə 1477 qurumu əhatə edir. UI GreenMetric 2024 reytinqində Avropa, Asiya, Amerika, Yaxın Şərq, Okeaniya və Afrika ölkələri də daxil olmaqla 95 ölkədən 1477 ali təhsil müəssisəsi qiymətləndirilib.

Bax səh. 11

# Hesablama Palatasının sədri Qarabağ Universitetinin tələbələrinə mühazirə deyib

**Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Qarabağ Universitetində tələbələrə “Dövlət auditi” mövzusunda mühazirə deyib.**

Bu barədə Hesablama Palatası məlumat yayıb. Bildirilib ki, mühazirə zamanı dövlət maliyyəsinin idarə edilməsi, ona nəzarətin nəzəri və praktik aspektlərinə toxunulub. Eyni zamanda sədr Hesablama Palatasının strateji idarəetmə çərçivəsinə diqqət yetirib, müxtəlif ali təhsil müəssisələri ilə əlaqələrin genişləndirilməsi istiqamətində bir sıra proqramların həyata keçirildiyini qeyd edib. Sədr bu çərçivədə Qarabağ Universiteti ilə birgə fəaliyyətin nəzərdə tutulduğunu da vurğulayıb.

Vüqar Gülməmmədov qeyd edib ki, gələcəkdə Qarabağ Universiteti ilə əməkdaşlıq təkcə təlim proqramları ilə məhdudlaşmayacaq, həm də tələbələrin Hesablama Palatasında təcrübə keçməsi, karyera inkişafı üçün təlimlərə cəlb edilməsi və tədqiqat işlərinin aparılması nəzərdə tutulur. Həmçinin universitet tələbələrinin sahə üzrə ən yaxşı məqalələrinin “Dövlət auditi” jurnalında dərc olunması, müvafiq fənlər üzrə tədris proqramlarının müəyyənləşdirilməsinə dəstəyin verilməsi kimi digər istiqamətlərin də əhatə olunması hədəflənir.

Hesablama Palatasının sədri bu əməkdaşlığın dövlət idarəçiliyinin inkişafına və ixtisaslı kadrların hazırlanmasına mühüm töhfə verəcəyinə inandığını vurğulayıb.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, mühazirədə elm və təhsil naziri Emin Əmrullayev də iştirak edib.









# Vətəndaş məmnunluğu, həssas yanaşma

## Elm və təhsil naziri Tərtərdə vətəndaşları qəbul edib



Dekabrın 20-də elm və təhsil naziri Emin Əmrullayev Tərtər şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda Tərtər, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Şuşa, Xocalı və Xocavənd sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb. Qəbul zamanı vətəndaşlar işlə təmin olunma, daimiləşmə, təhsil müəssisələrinin təmir-tikintisi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Gənc tərbiyəçi-müəllimlər üçün Təhsil Forumu keçirilib




Dekabrın 20-də Bakı və Sumqayıt şəhərlərinin məktəbəqədər təhsil müəssisələrində çalışan gənc tərbiyəçi-müəllimlərin iştirakı ilə Təhsil Forumu keçirilib.

Forumda Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri, Bakı şəhəri üzrə Təhsil İdarəsi, Abşeron-Xızı Regional Təhsil İdarəsinin nümayəndələri iştirak ediblər.

Agentliyin direktoru Eşqi Bağırov çıxışında məktəbəqədər təhsil sahəsində qarşıda duran əsas və nəticəyönümlü hədəflər barədə danışıb. Məktəbəqədər təhsilin əhatəliliyinin təmin olunması məqsədilə son illər həyata keçirilən yeni modellər və gələcək planlar barəsində məlumat verib.

Eşqi Bağırov müasir təhsil siyasəti və tələblərinə uyğun olaraq məktəbəqədər təhsil fəaliyyətinin formalaşdırılmasında, dəyişən təhsil tələblərinə uyğun yeniliklərin tətbiq edilməsində tərbiyəçi-müəllimlərin rolunu xüsusi vurğulayıb.

Daha sonra forum Agentliyin Məktəbəqədər təhsilin təşkili şöbəsinin müdiri İlahə Rəsulovanın moderatorluğu ilə panel müzakirələrlə davam edib.

Qeyd edək ki, forumun keçirilməsində əsas məqsəd məktəbəqədər təhsilin inkişafına töhfə vermək, gənc tərbiyəçi-müəllimlərin peşəkar inkişafını dəstəkləmək, onlar arasında şəbəkələşməni gücləndirmək və müsbət təcrübənin ötürülməsini təmin etməkdir.

# Nazirliyin rəsmiləri dördüncü Azərbaycan Karyera İnkişaf Forumunda iştirak edib






Dekabrın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə ölkəmizdə dördüncü Azərbaycan Karyera İnkişaf Forumu keçirilib.

“Bu günün təcrübəsindən sabahın çağırışlarına!” devizi ilə təşkil olunan Forumun məqsədi karyera inkişafı üzrə ölkədə və dünyada olan uğurlu nəticələr, qlobal trendlər və müasir yanaşmalar, təhsildə effektiv öyrənmə və öyrətmə mexanizmlərinin qurulması üçün əsas meyarlar, əmək bazarında tələb olunan bacarıqların əhəmiyyəti və inkişafı yollarını müzakirə etmək olub.

Forumda elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov, Təhsilin İnkişafı Fondunun sədri Elnur Nəsibov, Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Bəhruz Əzimov da iştirak ediblər.

Forumun açılışında çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaş rifahının dayandığını, hər bir ölkədə insan rifahında ən önəmli faktorun məşğulluğun təminatı olduğunu qeyd edib. Nazir məşğulluğun təminatı prosesində əsas istiqamətlərdən birinin insan resurslarının daim güclənən milli iqtisadiyyata, daim dəyişən əmək bazarının tələblərinə uyğun olaraq inkişaf etdirilməsi olduğunu bildirib.

Nazir Forumun işinə uğurlar arzulayıb, bu tədbirin müsbət nəticələr verəcəyinə əminliyini ifadə edib.

Daha sonra Azərbaycan Karyera İnkişaf Forumunun hesabat videosu yayımlanıb.

Sonra Forumun rəsmi panel sessiyası başlayıb.

Agentliyin İdarə Heyətinin sədri Sadiq Əliyevin moderatoru olduğu paneldə spikerlər əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, gənclər və idman naziri Fərid Qayıbov, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov əmək bazarının hazırkı vəziyyəti, təhsildə effektiv öyrənmə mexanizmləri və inkişaf yolları ilə bağlı çıxışlar edib, sualları cavablandırıblar.

Forumda “Təhsildən karyeraya: Gələcəyin innovativ həlləri”, “İnnovasiya, əməkdaşlıq və qlobal mobillik” və “İnsan kapitalının inkişafı və təşkilati mədəniyyət” adlı panellər üzrə yerli və xarici spikerlərin iştirakı ilə müzakirələr də keçirilib.

# "Azərbaycan məktəbi" təhsilin inkişafında mühüm rol oynayıb



## "Azərbaycan məktəbi" jurnalının 100 illik yubiley tədbiri keçirilib




### Elm və təhsil naziri Emin Əmrullayev

**"Azərbaycan məktəbi" jurnalı uzun illər ərzində Azərbaycan təhsilinin inkişafında mühüm rol oynayıb. Jurnal təhsil sahəsində cərəyan edən prosesləri, yenilikləri və problemləri işıqlandırmaqla yanaşı, maarifçilik missiyasını da layiqincə yerinə yetirib. Burada çalışmaq, jurnalın bir parçası olmaq, hər bir əməkdaş üçün böyük məsuliyyət və fəxrdir. Tarixə nəzər saldıqda görürük ki, təhsil sistemimiz bir əsr ərzində müxtəlif mərhələlərdən keçib. Xüsusilə müstəqillik dövründə bu sistemdə bir sıra islahatlar aparılıb, müasir standartlara uyğun təhsil modeli qurulub. Bu illər ərzində Azərbaycan təhsili həm maddi-texniki baza, həm də kadr potensialı baxımından ciddi irəliləyişlər əldə edib".**

### Nobel mükafatı laureatı, professor Aziz Sancar

**"Azərbaycan məktəbi" jurnalının kollektivini ürəkdən salamlayıram. Jurnalın 100 illik yubileyinin qeyd olunması münasibətilə bütün əməkdaşlarınızı təbrik edir, bu möhtəşəm nailiyyətin Azərbaycan təhsilinin inkişafında oynadığı əvəzsiz rolu xüsusi vurğulamaq istəyirəm. 1924-cü ildən başlayaraq "Azərbaycan məktəbi" jurnalının maarifləndirmə işlərindəki dəyərli töhfələri, pedaqoji elmlərin formalaşmasındakı rolu və müəllimlərə dəstək kimi mühüm vəzifələri şərəflə yerinə yetirməsi Azərbaycan təhsil tarixində mühüm bir səhifə açıb. Bu əlamətdar gündə jurnalın keçmişdən gələcəyə uzanan zəngin irsini bir daha dəyərləndirərək, onun gələcək fəaliyyətlərində də böyük uğurlar qazanacağına inanıram".**








Dekabrın 16-da Elm və Təhsil Nazirliyinin akademik mətbu orqanı olan elmi-nəzəri, pedaqoji "Azərbaycan məktəbi" jurnalının 100 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbirin təşkilində məqsəd artıq 100-cü ildir ki nəşr edilən jurnalın təhsil sisteminin yeniləşməsində, təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsində, mütərəqqi tədris metod və formalarının təbliğində, qabaqcıl təcrübənin öyrənilib yayılmasında, görkəmli alimlərin fikir və ideyalarının cəmiyyətə təqdim olunmasında, elmi, pedaqoji təfəkkürün formalaşmasında əhəmiyyətli və tarixi roluna diqqət çəkməkdir.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Əvvəlcə açılış nitqi ilə "Azərbaycan məktəbi" jurnalının baş redaktoru Arzu Soltan çıxış edib. Jurnalın 100 illik tarixi fəaliyyətinə toxunan Arzu Soltanın sözlərinə görə, təhsillə bağlı aparılmış tədqiqatlar müasir dünyada hər bir uğurun təməlində təhsilin dayandığını göstərir. Məhz bu həqiqətləri cəmiyyətə çatdırmaq və müəllimlərə dəstək olmaq "Azərbaycan məktəbi" jurnalının əsas məqsədidir.

Baş redaktor sonda yubiley tədbirinin təşkilində əməyi olan hər kəsə təşəkkür edib.

Ardınca jurnalın tarixi fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Təbrik nitqi ilə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev "Azərbaycan məktəbi"nin uzun illər ərzində Azərbaycan təhsilinin inkişafında mühüm rol oynadığını, jurnalın təhsil sahəsində cərəyan edən prosesləri, yenilikləri və problemləri işıqlandırmaqla yanaşı, maarifçilik missiyasını da layiqincə yerinə yetirdiyini diqqətə çatdırıb.

"Azərbaycan məktəbi" jurnalının uğurunun həm də tarixi köklərə bağlı olduğunu qeyd edən Emin Əmrullayev sonda yubilyar nəşrin kollektivini təbrik edib və uğurlar arzulayıb.

Daha sonra Nobel mükafatçısı, professor, jurnalın redaksiya şurasının üzvü Aziz Sancarın "Azərbaycan məktəbi" jurnalının 100 illiyi münasibətilə təbrik məktubu səsləndirilib.

Tədbirdə çıxış edən digər qonaqlar da öz növbələrində "Azərbaycan məktəbi" jurnalının maarifləndirmə işlərindəki dəyərli töhfələri, müəllimlərə dəstək kimi mühüm vəzifələri barədə danışıblar.

Çıxışlardan sonra "Azərbaycan məktəbi"nin bir qrup əməkdaşına jurnalın 100 illiyi münasibətilə Elm və Təhsil Nazirliyinin "Fəxri Fərman" və "Təşəkkürnamə"si təqdim edilib.

Tədbirin rəsmi açılış hissəsindən sonra "Elmi-pedaqoji nəşrlərin əhəmiyyəti, praktik yanaşmalar və təcrübələr" mövzusunda panel müzakirəsi təşkil edilib.

"Azərbaycan məktəbi" jurnalının baş redaktoru Arzu Soltanın moderatorluğu ilə keçirilən paneldə Təhsil İnstitutunun direktor müavini, pedaqoji elmlər doktoru, jurnalın redaksiya heyətinin üzvü İlham Cavadov, "ADA" Universitetinin dekanı, jurnalın redaksiya heyətinin üzvü Ülviyyə Mikayılova, pedaqogika üzrə fəlsəfə doktoru, Sumqayıt Dövlət Universitetinin prorektoru, jurnalın redaksiya heyətinin üzvü Könül Abaslı və Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin əməkdaşı, Dövlət Proqramı (University of Bath) məzunu Natəvan Qocayeva spiker qismində iştirak ediblər.

Panel müzakirəsində iştirak edən alim və doktorantlar, təhsil ixtisasları üzrə Dövlət Proqramı məzunları Azərbaycanda elmi potensialın artırılması istiqamətində təkliflərini səsləndiriblər.

# Təhsildə islahatların ən önəmli istiqamətlərindən biri idarəetmə ilə bağlıdır

## Elm və təhsil naziri məktəb direktorları ilə görüşüb







Elm və təhsil naziri Emin Əmrullayev Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin direktorları ilə görüş keçirib.

Görüşdə Elm və Təhsil Nazirliyinin struktur bölmələrinin rəhbərləri, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) direktoru Eşqi Bağırov, MÜTDA-nın direktor müavini, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova, eləcə də Səbail və Nizami rayonlarının məktəb direktorları iştirak ediblər.

Emin Əmrullayev görüş iştirakçılarını salamlayaraq təhsil sahəsində həyata keçirilən islahatlar, cari ildə əldə olunan nailiyyətlər və gələcək planlar barədə danışıb. Nazir təhsil sahəsində islahatların davamlı olaraq aparıldığını və idarəetmənin bu prosesin əsas prioritetlərindən biri olduğunu vurğulayıb. O, məktəb rəhbərlərinin üzərinə düşən vəzifələrin əhəmiyyətini xüsusi qeyd edib.

Nazir görüşdə məktəblərin qarşısında duran müasir çağırışlar, məktəb-icma əməkdaşlığının inkişafı, təhsilverənlərin sertifikatlaşdırılması prosesi, təhsil müəssisələrində psixoloji xidmətlərin gücləndirilməsi və inklüziv təhsilin təşviqi məsələlərinə diqqət çəkib. O, həmçinin elektron xidmətlərdən daha geniş və effektiv istifadənin zəruriliyini vurğulayıb. Təhsilin keyfiyyətinin artırılması, öyrənmə mühitinin təkmilləşdirilməsi və idarəetmənin modernləşdirilməsi istiqamətində davam edən fəaliyyətlərin əhəmiyyətindən bəhs edib.

Eyni zamanda görüş zamanı məktəb və müəllim nüfuzu ətrafında geniş müzakirələr aparılıb. Məktəblərdə baş verə biləcək neqativ halların qarşısının alınması istiqamətində təkliflər irəli sürülüb və bu sahədə mövcud problemlərin həlli yolları müzakirə olunub. Nazir sağlam mənəvi-psixoloji mühitin formalaşdırılması, məktəb-icma, müəllim-şagird-valideyn münasibətlərinin daha səmərəli şəkildə qurulması istiqamətində işlərin davam etdirilməsinin vacibliyini vurğulayıb və bu istiqamətdə tövsiyələrini verib.

Görüş çərçivəsində mövcud problemlər və onların həlli yolları müzakirə olunub, müvafiq məsələlər ətrafında qarşılıqlı fikir mübadiləsi aparılıb. Daha sonra təhsil müəssisələrinin rəhbərlərinin sualları cavablandırılıb, təkliflər dinlənilib və müvafiq tapşırıqlar verilib.

# "Naxçıvanlı elmlər doktorları"

## ADPU-da Naxçıvanın 100 illiyinə həsr olunmuş kitabın təqdimatı keçirilib



Dekabrın 18-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Kitabxana-İnformasiya Mərkəzində ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanovun "Naxçıvanlı elmlər doktorları" kitabının təqdimatı keçirilib.

Təqdimat mərasimində elmi ictimaiyyətin nümayəndələri, eləcə də Pedaqoji Universitetin rəhbərliyi və professor-müəllim heyəti iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin və Azərbaycanın elmi-ictimai tərəqqisində mühüm rol oynayan görkəmli alimlərin xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə açılış nitqi ilə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov diqqətə çatdırıb ki, ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd olunması ilə əlaqədar Tədbirlər Planı təsdiq olunub. Professor Asəf Zamanovun bu ensiklopedik əsərini də Pedaqoji Universitetin Muxtar Respublikanın 100 illiyinə dəyərli töhfəsi hesab etmək olar.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik katibi, Fizika İnstitutunun baş direktoru akademik Arif Həşimov, Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri akademik Nizami Cəfərov, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru akademik Teymur Kərimli, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov, AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri professor Vüqar Əhməd, ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri professor Fərrux Rüstəmov və Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru professor Nazim Kazımov çıxış edərək əsərin xüsusən elm tarixi və görkəmli alimlərin irsinin öyrənilməsi baxımından müstəsna əhəmiyyət kəsb etdiyini vurğulayaraq, müəllifə bu əhatəli tədqiqata görə minnətdarlıqlarını bildiriblər.

Qeyd olunub ki, 100 ildən artıq tarixi olan Pedaqoji Universitet və onun alimləri daim milli təhsilimiz və elmimizin inkişafına dəyərli töhfələr verib. A.Zamanovun sözügedən əsəri də bu kontekstdə növbəti qədirşünaslıq nümunəsi hesab oluna bilər.

Professor Asəf Zamanov göstərilən diqqətə görə çıxışçılara və tədbir iştirakçılarına minnətdarlığını bildirərək vurğulayıb ki, "Naxçıvanlı elmlər doktorları" əsərində ümumən 300 nəfərdən çox naxçıvanlı və əslən Naxçıvandan olan alimlər - elmlər doktorlarının həyatları və elmi yaradıcılıqları haqqında məlumat əks olunur.

Bildirilib ki, kitab ilk dəfə Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş konfransda tədqim olunub.

Müəllif Asəf Zamanov "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində bildirib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı onun üçün katalizator rolu oynayıb: "Naxçıvanın alimlərini bir kitabda toplamaq barədə çoxdan düşünürdüm, amma reallaşdıra bilmirdim. Sərəncamdan 5 gün sonra bu işə başladım".

Üzərində 9 ay çalışdığı kitabı bu ilin sentyabr ayında universitetdə müzakirə edərək çapına qərar veriblər: "Kitabı hazırlayarkən Naxçıvan ensiklopediyası, özümüzün hazırladığımız Pedaqoji Universitetin 100 məşhur məzunu, Pedaqoji universitetin professorları, professor Misir Mərdanovun müəllifi olduğu "Elmlər doktorları" adlı kitablar əsas bələdçim oldu. Lakin bu kitabda 301 elmlər doktorunun barəsində daha geniş, ensiklopedik məlumatlar, hətta yetirmələrin sayı, əsərləri, aldığı mükafatlar, redaksiya heyətlərində təmsil olunduqları elmi jurnallar barədə məlumat verdik".

A.Zamanovun fikrincə, bu kitabın stimullaşdırıcı təsirləri çox olacaq: "Azərbaycan gənclərinin elmə gəlməsində rol oynayacaq. Akademiyada, elmi tədqiqat mərkəzlərində, universitetlərdə fəaliyyət göstərmiş insanların həyatını öyrənmək, uğurlarını görmək gənclərdə motivasiya yaradacaq".

**Ruhiyyə DAŞSALAHLI**

# "Fövqəladə hallar uşaqların gözü ilə"

## XII Respublika uşaq yaradıcılıq müsabiqəsinin qalibləri mükafatlandırılıblar








**Dekabrın 18-də Fövqəladə Hallar Nazirliyi və Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş "Fövqəladə hallar uşaqların gözü ilə" XII Respublika uşaq yaradıcılıq müsabiqəsi qaliblərinin mükafatlandırılma mərasimi olub.**

Tədbirdə fövqəladə hallar naziri Kəmaləddin Heydərov, gənclər və idman naziri Fərid Qayıbov, elm və təhsil nazirinin müavini Həsən Həsənli, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin sektor müdiri Həmid Nəsirov, Azərbaycan Gənclər Fondunun icraçı direktoru vəzifəsini müvəqqəti icra edən Qədir Xəlilov, müsabiqə qalibləri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Daha sonra müsabiqənin seçilmiş işlərindən ibarət sərgi ilə tanışlıq olub.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov fövqəladə hallarla bağlı zəruri təhlükəsiz davranış qaydaları barədə bilik və vərdişlərə məhz kiçik yaşlardan, məktəb illərindən yiyələnməyin cəmiyyətdə ümumi təhlükəsiz həyat fəaliyyəti mədəniyyətinin formalaşmasında mühüm rol oynadığını vurğulayıb.

Bu çərçivədə "Fövqəladə hallar uşaqların gözü ilə" Respublika uşaq yaradıcılıq müsabiqəsinin əhəmiyyətindən danışan nazir məktəblilər arasında böyük maraq qazanmış müsabiqənin qaliblərini təbrik edib, onlara yeni uğurlar arzulayıb.

Tədbirdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov müsabiqənin istedadlı uşaqların üzə çıxarılması, onların fövqəladə hallar sahəsində biliklərinin artırılması və hərtərəfli inkişafına müsbət təsir göstərdiyini bildirib, qalibləri təbrik edib.

Daha sonra çıxış edən elm və təhsil nazirinin müavini Həsən Həsənli və Azərbaycan Gənclər Fondunun icraçı direktoru vəzifəsini müvəqqəti icra edən Qədir Xəlilov müsabiqədə qalib gələn uşaqları təbrik edib, onların fövqəladə hallarla bağlı zəruri bilik və bacarıqlara yiyələnməsində, təhlükəsiz həyat fəaliyyəti mədəniyyətinin formalaşdırılmasında müsabiqənin rolunu vurğulayıblar.

Sonra qaliblərə fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

Tədbir bədii hissə ilə davam etdirilib.

Qeyd edək ki, ölkənin bütün şəhər və rayonlarının ümumtəhsil məktəblərinin şagirdlərinin iştirak etdikləri yaradıcılıq müsabiqəsi rəsm, plakat, əl işi, yanğın və qəzaxilasetmə texnikasının modeli və yumşaq oyuncaq nominasiyalarında məktəb, rayon və ümumrespublika birinciliyi mərhələləri üzrə keçirilib.

Müsabiqənin yekununda 25 nəfər birinci, 25 nəfər ikinci, 58 nəfər üçüncü yerə, 80 nəfər isə həvəsləndirici mükafata layiq görülüb.

# "QALİB ÖLKƏNİN QALİBLƏRİ" MÜKAFATLANDIRILIB



**Dekabrın 17-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Qalib ölkənin qalibləri-2024" adlı mükafatlandırma mərasimi keçirilib.**





Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Daha sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra cari ildə istedadlı uşaqların qazandıqları uğurları əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova "Qalib ölkənin qalibləri" layihəsinin artıq ənənə halı aldığını və üçüncü dəfədir ki, müxtəlif sahələrdə Azərbaycanın adını yüksəklərə qaldıran uşaqların mükafatlandırıldığını diqqətə çatdırıb. Komitə sədri bildirib ki, hər bir ölkə üçün görüləcək ən vacib iş onun başlıca sərvəti olan insan kapitalının inkişafına sərmayə qoyulması, diqqət və qayğı göstərilməsidir.

Bahar Muradova qələbə qazanan uşaqların uğurlu nəticələrinin hər həsi qürurlandırdığını vurğulayaraq əlavə edib ki, bu gün məktəblərdə yaradılan maddi-texniki baza, yüksək "smart" yeniliklər uşaqların uğurlarının miqyasının daha da genişlənməsinə imkanlar yaradır.

Sədr sonda qalibləri təbrik edərək onlara daha böyük uğurlar arzu edib.

Tədbirdə iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov müxtəlif sahələrdə qazandıqları nailiyyət münasibətilə uşaqları təbrik edib. Nazir müavini bildirib ki, bu gün gənclərin istedadının aşkar olunması və inkişaf etdirilməsi üçün hər cür şərait yaradılır. Nazir müavininin sözlərinə görə, hər bir gəncdə istedad var, sadəcə onu görmək lazımdır.

Firudin Qurbanov hər il respublika fənn olimpiadalarında kifayət qədər istedadlı şagirdin iştirak etdiyini və aşağı siniflərdə təhsil alanların olimpiada mərkəzlərinə cəlb olunduqlarını qeyd edib. Nazir müavini bir neçə il öncə olimpiadalarda yüksək nəticələr əldə edən gənclərin hazırda dünyanın bir sıra ölkələrində yüksək vəzifələrdə çalışdıqlarını da diqqətə çatdırıb. Uşaqları dövlətin sərvəti adlandıran Firudin Qurbanov istedadlı uşaqların həm də ölkənin gələcək təminatçıları olduğunu vurğulayıb. Qeyd edilib ki, bu uğurlar gələcəkdə konkret fəaliyyətə çevriləcək və ölkəmizin hərtərəfli inkişafına töhfə verəcək.

Çıxış edən gənclər və idman nazirinin müavini Fərhad Hacıyev bildirib ki, dünyanın hazırkı inkişaf sürətinə çatmaq üçün uşaqlar daim öz üzərində çalışmalı və müxtəlif sahələrdə potensiallarını inkişaf etdirməlidirlər.

Mədəniyyət nazirinin müşaviri Cəsarət Valehov da öz növbəsində süni intellekt əsrində yaradıcı təfəkkürün əhəmiyyətindən bəhs edib. Cəsarət Valehov rəqəmsal dünyada öz istedadı və bacarığı ilə seçilməyi bacaran uşaqların uğurlarını yüksək qiymətləndirib.

Qalib uşaqlar adından çıxış edənlər tədbirin təşkili üçün təşəkkürlərini bildirib, dövlət tərəfindən onlar üçün yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Tədbirdə elm, təhsil, mədəniyyət və idman sahələrində il ərzində Azərbaycanı beynəlxalq olimpiada və yarışlarda təmsil edərək qalib gəlmiş 100 uşaq mükafatlandırılıb.

Sonda mədəniyyət sahəsində uğur qazanmış uşaqlar tərəfindən müxtəlif musiqi alətlərində ifalar səsləndirilib.



# Xankəndi və Xocalıda yeni uşaq bağçaları fəaliyyətə başlayıb



İşğaldan azad edilmiş Xankəndi şəhəri və Xocalı rayonunda uşaq bağçaları fəaliyyətə başlayıb.

Xankəndi şəhər 1 nömrəli körpələr evi-uşaq bağçası əsaslı təmirdən sonra istifadəyə verilib. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları, Qarabağ Regional Təhsil İdarəsinin rəhbərliyi bağçada yaradılmış şəraitlə tanış oldular. Bildirilib ki, 34 ildən sonra fəaliyyəti bərpa edilən uşaq bağçası 80 yerlikdir. Burada 4 yataq otağı, 4 yemək və oyun otağı, 5 mətbəx, 1 tibbi otaq, 4 inzibati otaq, 1 anbar, 1 iclas zalı, 1 musiqi otağı və 7 sanitar qovşaq mövcuddur.





Uşaq bağçası 4 qrupdan ibarətdir. 1 yaşdan 3 yaşadək kiçik qrup, 3 yaşdan 4 yaşadək orta qrup, 4 yaşdan 5 yaşadək böyük qrup və 3 yaşdan 6 yaşadək böyük qarışıq qrup var. Kiçik qrup üzrə 10, orta qrup üzrə 12, böyük qrup üzrə 16, böyük qarışıq qrup üzrə 5 uşaq olmaqla, 43 uşaq hazırda bağçada təlim-tərbiyə alır. Burada 15 nəfər işlə təmin olunub.

Xocalı şəhərində isə 32 ildən sonra ilk körpələr evi-uşaq bağçasının açılışı olub. Açılış mərasimində rəsmi qonaqlarla yanaşı, valideynlər və bağça kollektivi də iştirak edib. Qarabağ Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli yeni fəaliyyətə başlayan uşaq bağçasının kollektivinə uğurlar arzulayaraq, dövlətin təhsilə olan diqqət və qayğısından bəhs edib. İşğaldan azad olunmuş torpaqlarımızda yenidən yaradılan təhsil müəssisələrinin infrastrukturunun əsaslı şəkildə müasirləşdirilməsindən, yeni istifadəyə verilən bağçalarda uşaqlara yaradılan şəraitdən danışıb.

Xocalı şəhərindəki uşaq bağçası 40 yerlikdir və 2 qrupdan ibarətdir. 24 uşağın təlim-tərbiyəsi ilə 14 işçi məşğul olur. Müasirliyi ilə seçilən bu uşaq bağçasında 2 yataq otağı, 2 yemək və oyun otağı, 2 mətbəx, 2 inzibati otaq, 1 anbar, 1 tibb otağı və 2 sanitar qovşaq mövcuddur.

# Firudin Qurbanov “Səhiyyə İdarəçiləri Zirvəsi 2024” tədbirində iştirak edib



Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev çıxışında bildirib ki, Agentlik Səhiyyə Nazirliyi, TƏBİB və digər aidiyyəti dövlət qurumları ilə birlikdə sağlamlıq turizminin inkişafı ilə bağlı strategiya sənədi üzərində işlər aparmaqdadır.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışı zamanı qeyd edib ki, gələcəkdə süni intellekt vasitəsilə tibbi xidmətlərin göstərilməsi inkişaf etdiriləcək. Bu istiqamətdə çalışan səhiyyə işçilərini formalaşdırmaq lazımdır. Bu da təbii ki, təhsil sistemi ilə əlaqəlidir. Təhsil sistemində də bu, daima düşünülür və gələcək inkişafı proqnozlaşdırılır. Təhsil sisteminin qarşısında duran əsas məsələ odur ki, biz bu gün elə məzunlar yetişdirməliyik ki, onlar hələ biz bilmədiyimiz vəzifələri yerinə yetirmək istiqamətində səriştəli olsunlar.



Dekabrın 18-də Azərbaycanda yeni səhiyyə erasına həsr edilən “Səhiyyə İdarəçiləri Zirvəsi 2024” adlı tədbir baş tutub.

Zirvənin tədbirlər proqramı çərçivəsində açılış nitqi ilə çıxış edən TƏBİB-in Strateji inkişaf departamentinin rəhbəri Murad Mirzəyev səhiyyə idarəçilərinin rolu və öhdəliklərini müzakirə etmək üçün tədbirin əhəmiyyətli platformalardan biri olduğunu qeyd edib.

Tədbirin rəsmi hissəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov, səhiyyə nazirinin müavini Nadir Zeynalov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, Milli Məclisin Səhiyyə komitəsinin üzvü, millət vəkili Soltan Məmmədov və digər dövlət, hökumət rəsmiləri, eləcə də tibb müəssisələrinin rəhbər heyətləri iştirak ediblər.

Tədbirdə çıxış edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev səhiyyə idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsinin vacibliyindən danışıb.

TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov çıxışında bildirib ki, bu gün TƏBİB tabeli tibb müəssisələrinin rəhbərlərinin idarəetmə bacarıqlarının inkişaf etdirilməsi, resursların effektiv idarəolunması, səhiyyə sahəsinin rəqəmsallaşdırılması, innovativ yeniliklərin tətbiqi, xidmət standartlarının müasir tələblərlə uyğunlaşdırılması istiqamətində önəmli addımlar atır. Eyni zamanda günümüzün tələblərinə uyğun olaraq sağlamlıq, tibbi turizm imkanları, dövlət-özəl tərəfdaşlığı çərçivəsində əməkdaşlıq modelləri üzərində də işlər uğurla davam etdirilir.

Çıxış edən səhiyyə nazirinin müavini Nadir Zeynalov isə bildirib ki, səhiyyə sahəsində ən mühüm addımlardan biri də məhz ölkəmizdə icbari tibbi sığorta sisteminin tətbiq edilməsidir.

Millət vəkili Soltan Məmmədov isə bildirib ki, səhiyyədə dayanıqlı inkişafın təmin edilməsi, rəqəmsallaşma və innovasiyaların tətbiqi yalnız tibbi xidmətlərin keyfiyyətini dəyişən amillər deyil, eyni zamanda sosial rifaha, iqtisadi inkişafa mühüm töhfələr verən yeni yanaşmaları ehtiva edir.

Daha sonra panel müzakirələrinə start verilib.

Qeyd edək ki, tədbirdə iki panel, üç sessiya üzərindən dayanıqlı səhiyyə idarəedilməsi və səhiyyədə yeni imkanlar müzakirə edilib.

# ADA Universiteti özünün ilk doktorantura proqramını təqdim edib

ADA Universiteti özünün ilk doktorantura proqramını, ABŞ-ın Corc Vaşinqton Universiteti ilə birgə yeni magistr və doktorantura proqramlarını təqdim edib.



AZƏRTAC xəbər verir ki, bu münasibətlə dekabrın 19-u keçirilən tədbirdə hər iki universitetin professor-müəllim-tələbə heyəti, yerli və xarici qonaqlar iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən akademik işlər üzrə prorektor Elkin Nurməmmədov və İnformasiya texnologiyaları və mühəndislik fakültəsinin dekanı Abzətdin Adamov yeni proqramların elanını ADA Universiteti tarixində əlamətdar hadisə kimi qiymətləndiriblər.



ADA Universitetinin ABŞ-dakı Mərkəzinin prezidenti Qalib Məmməd də çıxış edib. O, ADA Universitetinin yeni təşəbbüslərinin gələcək elmi-pedaqoji heyətin hazırlanması məqsədi daşıdığını söyləyib. Bildirib ki, ADA Universitetinin Corc Vaşinqton Universiteti ilə əməkdaşlığı növbəti mərhələyə qədəm qoyur və daha geniş tələbə kütləsinin ehtiyaclarını ödəməyə yönəlib.

Corc Vaşinqton Universitetinin professorları Can Korman, Tarek Əl-Qəzavi və Rebeka Ha iki universitet arasındakı uğurlu əməkdaşlığın tarixindən bəhs ediblər. Onlar tədbir iştirakçılarına magistratura səviyyəsində təklif olunan ikili diplom proqramları barədə məlumat veriblər. Qonaqlar bildiriblər ki, imzalanacaq doktorantura təhsili razılaşması sayəsində əməkdaşlıq genişlənəcək və bu razılaşma tələbələrin elmi inkişafında əhəmiyyətli rol oynayacaq.



ADA Universitetinin rektoru Hafiz Paşayev yekun nitqində vurğulayıb ki, universitet ilk yaranan gündən elmi-pedaqoji heyətin gücləndirilməsi istiqamətində bir sıra işlər aparır. Bu məqsədlə ADA Universiteti mütəmadi olaraq xaricdə doktorantura təhsili alan azərbaycanlılarla yaxından işləyir və elmə maraq göstərən gənclərin nüfuzlu universitetlərdə doktorantura təhsilini dəstəkləyir. Rektor bildirib ki, ADA Universitetində texniki və texnoloji sahədə doktorantura təhsilinin açılışı da məhz bu məqsədə xidmət edir. Bundan əlavə, o qeyd edib ki, Corc Vaşinqton və Turin Politexnik Universitetində də bu sahələrdə doktorantura təhsili almaq imkanı azərbaycanlı gənclərə yeni akademik keyfiyyətlər qazandıracaq, onların ixtisaslaşmasını və beynəlxalq elmi şəbəkəyə qoşulmasını təmin edəcək. Bu, yalnız ADA Universitetinin deyil, bütövlükdə ölkəmizin inkişafına fayda verəcək.

Tədbirin əsas məqamlarından biri də ADA Universiteti və Corc Vaşinqton Universiteti arasında doktorantura təhsili üzrə tərəfdaşlıq müqaviləsinin imzalanması olub. Müqavilənin məqsədi ölkəmizdə İnformasiya Texnologiyaları sahəsinin inkişafına töhfə verəcək akademik kadrların yetişdirilməsidir. ADA Universitetinin doktorantura təhsili vasitəsilə yetişdirəcəyi müəllim və tədqiqatçılar beynəlxalq miqyasda ən müsbət təcrübələrə yiyələnəcəklər.

Qeyd edək ki, informasiya texnologiyaları və kompüter elmləri üzrə doktorantura proqramına ilk qəbul 2025-ci ildən etibarən aparılacaq.

Bu gün təqdimatı keçirilən magistr proqramları vasitəsilə tələbələr iki il ərzində həm Bakıda, həm Vaşinqtonda təhsil alaraq sonda iki diplom əldə edəcəklər.

# TTKF 3 illik fəaliyyətinin hesabatını verdi

Təhsil Tələbə Krediti Fondunun (TTKF) 3 illik fəaliyyətinin nəticələrinə həsr olunmuş tədbir keçirilib.

Tədbir ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə TTKF-nin 3 illik fəaliyyətindən, əldə olunan nəticələrdən və bu fəaliyyətin tələbələrə verdiyi töhfələrdən bəhs edən film nümayiş olunub.

Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edən Bəhruz Əzimov təqdimatla çıxış edərək Fondun yaranma məqsədləri, qarşıya qoyulan hədəflər, təhsil tələbə kreditlərinin verilməsi qaydaları, geri ödənişlər və s. haqqında iştirakçılara ətraflı məlumat verib.





Qeyd olunub ki, Azərbaycan Prezidentinin 2021-ci il 17 iyun tarixli 1367 nömrəli Fərmanı ilə Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılmış Təhsil Tələbə Krediti Fondunun əsas məqsədi əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir.

Daha sonra çıxış edən Elm və Təhsil Nazirliyinin şöbə müdiri Səbuhi Rzayev media nümayəndələrinin fondun fəaliyyətinin geniş ictimaiyyətə çatdırılmasındakı rolunu xüsusi vurğulayıb.

O qeyd edib ki, fondun adında kredit sözü olsa da, bu layihə tələbələr üçün bir dəstək mexanizmi kimi nəzərdə tutulur.

Ardınca TTKF-nin təşkil etdiyi “Könüllü” proqramının iştirakçısı olan könüllülər təhsil tələbə kreditləri ilə bağlı apardıqları səmərəli maarifləndirmə işlərinə görə təşəkkürnamələrlə təltif olunublar.

Daha sonra media nümayəndələrinin sualları cavablandırılıb.

# Elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivləri müzakirə olunub








## Sudan Respublikasının ölkəmizdəki səfiri və Ruanda İnkişaf Şurasının Baş icraçı direktorunun müavini ilə görüş

Dekabrın 16-da elm və təhsil nazirinin müavini Həsən Həsənli Sudan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Mustafa Abdelhalim və dekabrın 19-da Ruanda İnkişaf Şurasının Baş icraçı direktorunun müavini Culiana Muganza ilə görüşüb.

Görüşlərdə ölkələr arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivləri müzakirə edilib.

# Nazir müavini Hacıqabulda səfərdə olub

## İdris İsayev təhsil müəssisələrində olub, vətəndaş qəbulu keçirib

Dekabrın 17-də elm və təhsil nazirinin müavini İdris İsayev Hacıqabul rayonunda səfərdə olub.

Əvvəlcə Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov və Şirvan-Salyan Regional Təhsil İdarəsinin müdiri vəzifəsini icra edən Vüqar Dadaşovla birgə Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Səfər zamanı İdris İsayev Hacıqabul şəhər 10 və 5 nömrəli tam orta məktəblərə baş çəkib. Sözügedən təhsil müəssisələrində yaradılmış şəraitlə tanış olan İdris İsayev müəllim və şagird kollektivi ilə də görüşüb, onların təkliflərini dinləyib və tövsiyələrini verib. Nazir müavini Hacıqabul şəhərində yerləşən 2 nömrəli “Gündüz” körpələr evi-uşaq bağçasında da təlim-tərbiyə prosesini izləyib.

Daha sonra nazir müavini ümumi və məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri ilə görüş keçirib.

Görüş Şirvan-Salyan Regional Təhsil İdarəsinin fəaliyyətini əks etdirən təqdimatla başlayıb.

Görüş çərçivəsində Hacıqabul rayonu üzrə ümumi təhsil müəssisələrinin IV-VI siniflərində aparılan monitorinqlər, IX-XI siniflərinin buraxılış imtahanlarının nəticələri, STEAM, “Rəqəmsal bacarıqlar” və “Peşə təmayüllü siniflər” layihələrinin tətbiqi və tədrisi məsələləri müzakirə olunub.

Nazir müavini təhsil müəssisələrinin idarə olunması və təşkili ilə bağlı əsas hədəflər, təhsilin keyfiyyətinin artırılması istiqamətində görüləcək işlər barədə ətraflı danışıb, təhsil işçiləri ilə söhbət aparıb və onların təkliflərini dinləyib.

Səfər çərçivəsində nazir müavini vətəndaş qəbulu keçirib. Qəbul zamanı vətəndaşlar tərəfindən işlə təmin olunma və digər mövzularla bağlı müraciətlər edilib. İdris İsayev müraciətlərin operativ şəkildə araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verib.







# “GƏNC HÜQUQ MÜDAFİƏÇİLƏRİ”

## Məhkəmə müsabiqəsinin qalibləri mükafatlandırılıb





Dekabrın 18-də “Gənc hüquq müdafiəçiləri” məhkəmə müsabiqəsi qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.

Tədbirdə elm və təhsil nazirinin müavini İdris İsayev, Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov, Vəkillər Kollegiyasının Aparat rəhbərinin müavini Səttar Məmmədov, millət vəkilləri, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdir müavini Anar Qədiməliyev, Avropa Hüquqşünas Tələbələr Assosiasiyası-Bakı İctimai Birliyinin (“ELSA Azərbaycan”) prezidenti Nazim Çələbiyev və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə “Femida Könüllüləri” Təşkilatı İctimai Birliyi və “ELSA Azərbaycan”ın birgə əməkdaşlığı çərçivəsində keçirilən müsabiqənin finalına vəsiqə qazanmış komandaların səhnələşdirilmiş məhkəmə prosesi izlənilib.

Çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev müsabiqənin gənc nəslin qanuna hörmət ruhunda formalaşdırılması, vətəndaş cəmiyyətinin əsaslarının möhkəmləndirilməsi, hüquqi savadlılığın artmasına töhfə vermək məqsədilə keçirildiyini bildirib. Nazir müavini dövlət siyasətinin əsas tərkib hissəsi olan intellektual və savadlı gəncliyin yetişdirilməsi işində belə müsabiqələrin rolundan, şagird-tələbə əməkdaşlığının uğurlu nəticələrindən danışıb.

Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov öz növbəsində finala yüksələn komandaları təbrik edib və onlara uğurlar arzulayıb. Sədr müavini müsabiqədə iştirak edən şagirdlərin gələcəkdə peşəkar hüquqşünas olacaqlarına və ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində mühüm rol oynayacaqlarına inandığını bildirib.

Milli Məclisin deputatı Kamal Cəfərov çıxışında müsabiqənin tələbələrin, eyni zamanda gələcəkdə hüquqşünas olmaq istəyən məktəblilərin inkişafında müstəsna rol oynadığını, onlara nəzəri bilikləri praktik formada tətbiq etməyi və təkmilləşdirməyi öyrətdiyini söyləyib.

Daha sonra müsabiqənin nəticələri açıqlanıb. Nəticələrə əsasən, Bakı şəhərində yerləşən 193 nömrəli tam orta məktəb və 291 nömrəli Ekologiya liseyinin şagirdlərindən ibarət komanda qalib seçilib. Sonda qalib komandalara, həmçinin müxtəlif nominasiyalar üzrə fərqlənən şagirdlərə diplom və hədiyyələr təqdim olunub. Ali Məhkəmənin hakimləri və təlimçilər isə Təşəkkürnamə ilə təltif ediliblər.

# “YAŞIL GƏLƏCƏYƏ KÖNÜL VER”

## Nazir müavini bu mövzuda görüşdə iştirak edib




Dekabrın 18-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı, Gənclər və İdman Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi və Gənclər Fondunun əməkdaşlığı ilə “Yaşıl gələcəyə könül ver” mövzusunda görüş keçirilib.

Görüşdən əvvəl könüllülər tərəfindən musiqi nömrələri nümayiş etdirilib və süni intellekt vasitəsi ilə hazırlanmış şəkillərdən ibarət sərgiyə baxış keçirilib.

Görüş Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Pantomima teatrının aktyorlarının ifasında ətraf mühitin qorunması ilə bağlı mesajları özündə əks etdirən tamaşa izlənilib.

Tədbir çərçivəsində könüllülərin fəaliyyətini əks etdirən və COP29 konfransı ilə bağlı təəssüratlarından ibarət videoçarxlar nümayiş etdirilib.

Görüşdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova könüllü gənclərin COP29 fəaliyyətinə böyük həvəs və şövqlə qatıldıqlarını vurğulayıb, onların bu prosesə hərəkətverici qüvvə kimi töhfə verməyə çalışdıqlarını dilə gətirib.

Komitə tərəfindən artıq bir neçə ildir ki, “Ailəm könüllüləri” layihəsinin həyata keçirildiyini bildirən sədr, könüllü proqramlarının əldə edilən bütün nailiyyətlərin əsas tərkib hissələrindən biri olduğunu qeyd edib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında təbiətin mühafizəsi, flora və faunanın, eləcə də biomüxtəlifliyin qorunması, sağlam qidalanmanın təmin edilməsi, sudan qənaətlə və səmərəli istifadənin önəmini vurğulayıb. Nazir müavini inkişaf etmiş ölkələrdə texnologiya və sənayenin yüksək inkişafının fəsadları haqqında da məlumat verib. Bildirib ki, insanlarda ekoloji mədəniyyət formalaşdırmaq lazımdır. Təhsil sistemində bu sahəyə xüsusi diqqət ayrılmalıdır. Yalnız ekoloji tərbiyə və ekoloji mədəniyyətin gücü ilə bilikli və təhsilli gənclik sayəsində bu mənfi təsirlərin həcmini azaltmaq olar.

Gənclər və idman nazirinin müavini İndira Hacıyeva COP29 konfransı çərçivəsində gənclərin aktiv fəaliyyətini xüsusilə vurğulayaraq onların keçirilən tədbirlərə verdiyi mühüm töhfələri qeyd edib. Nazir müavini bildirib ki, biz gələcəyimizi daha optimist və uğurlu görmək üçün təbiəti, suyu, ekoloji tarazılığı qorumalıyıq. İnsan fəaliyyəti daha çox elmə və biliyə əsaslanmalıdır. Çünki düşünülməmiş və elmə əsaslanmamış hər bir addım ağır nəticələrə səbəb ola bilər. Gənclərin bu haqda düşünməsi, siyasi iradə sərgiləməsi, fərdlərin davranış tərzi olduqca vacibdir.

Çıxış edən səhiyyə nazirinin müavini Nadir Zeynalov iqlim dəyişikliyinin insan sağlamlığına təsirlərindən danışıb. Nadir Zeynalov qeyd edib ki, iqlim dəyişikliyinin dolayı yolla su və qida ehtiyatlarının, sanitariya imkanlarının azalmasına və nəticədə müxtəlif xəstəliklərin yayılmasına səbəb olur. Nazir müavini könüllü gənclərin bu sahədə maarifləndirmə işində və ümumi məlumatlılıq səviyyəsinin artırılmasında mühüm rol oynaya biləcəklərini vurğulayıb.

Çıxış edən Milli Məclisin deputatı, COP29 iqlim çempionu Nigar Arpadarai Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyasında könüllülərin aktiv fəaliyyətini yüksək qiymətləndirib. O, Azərbaycanda könüllülük fəaliyyətinin artıq ənənə halını aldığını vurğulayaraq ildən-ilə könüllülərin təşkilatçılığa daha çox cəlb olunduğunu, kommunikasiya bacarıqları ilə daha peşəkar yanaşmaların müşahidə olunduğunu qeyd edib.

Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Vüqar Əliyev çıxış edərək bildirib ki, keçirilən tədbirlərdə Azərbaycan könüllülərinin təkcə izləyici kimi deyil, iştirakçı qismində çıxış etməsi sevindirici haldır. Bu, dövlətimizin, dövlət başçısının gəncliyimizə verdiyi dəyərin və gənclərimizin də bu qayğını hiss etməsinin nəticəsidir.

Çıxışlardan sonra könüllülər tərəfindən dövlət rəsmilərinə ünvanlanan suallar cavablandırılıb.

Davamında görüşü təşkil edən qurumların könüllü təşkilatlarının ətraf mühitin mühafizəsinə dair əməkdaşlıq razılaşması səsləndirilib.

# "2022-2028 Dövlət Proqramı" məzunları ilə şəbəkələşmə görüşü

**Dekabrın 19-da Elm və Təhsil Nazirliyinin dəstəyi, Dövlət Proqramı İdarəetmə Qrupunun təşkilatçılığı ilə “2022-2028 Dövlət Proqramı məzunları ilə şəbəkələşmə görüşü” adlı tədbir keçirilib.**





Tədbirin keçirilməsində məqsəd 2024-cü il üzrə yeni məzunlar və işəgötürən qurumları bir araya gətirərək şəbəkələşmələrinin həyata keçirilməsi olub.

Tədbirdə Elm və Təhsil Nazirliyinin rəsmiləri, Dövlət Neft Fondunun nümayəndələri, 30-a yaxın nüfuzlu dövlət və özəl sektor qurumunun nümayəndələri, 150-dən çox Dövlət Proqramı məzunu iştirak edib.

Tədbirin rəsmi açılışı Dövlət Proqramı İdarəetmə Qrupunun rəhbəri Turan Topalovanın salamlama nitqi ilə başlayıb.

Görüşdə iştirak edən elm və təhsil nazirinin müavini Həsən Həsənli və Dövlət Neft Fondunun İcraçı direktorunun müavini Rövşən Cavadov çıxış edərək məzunları təbrik edib və gələcək karyera imkanlarında onlara uğurlar arzulayıblar.

Daha sonra tədbir məzun və işəgötürən qurumlar arasında şəbəkələşmə oyunu ilə davam edib.

Tədbir əyləncə proqramı ilə başa çatıb.

# "Strateji kommunikasiya" mövzusunda təlim keçirilib





Elm və Təhsil Nazirliyi (ETN) və Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin (EATDA) təşkilatçılığı ilə elm və ali təhsil üzrə ictimaiyyətlə əlaqələr və kommunikasiya işinin təşkilinə dair "Strateji kommunikasiya" mövzusunda təlim keçirilib.

Təlimin açılış nitqi ilə çıxış edən ETN-nin Aparat rəhbəri Mətin Kərimli elm, ali və orta ixtisas təhsil müəssisələrində çalışan əməkdaşlar üçün təlimlərin əhəmiyyəti, eləcə də daxili kommunikasiyanın qurulması və böhran kommunikasiyasının düzgün təşkilinin önəmini vurğulayıb.

EATDA-nın direktoru Ülkər Səttarova elm və təhsil müəssisələrinin media ilə iş və ictimaiyyətlə əlaqələr sahəsində prioritet istiqamətləri barədə danışıb və iştirakçıların suallarını cavablandırıb.

Təlimdə ictimaiyyətlə əlaqələr üzrə ekspertlər Vəli Əlibəyov və Emin Hüseynzadə iştirakçılara daxili kommunikasiyanın təşkili, effektiv mesaj hazırlamaq, əks əlaqənin təşkili, eləcə də hədəf kütləsi üçün təsirli hekayənin hazırlanması mövzusunda məlumat veriblər.

Növbəti sessiyalarda media və kommunikasiya üzrə ekspert Vüqar Ziféroğlu KİV ilə münasibətlər, media üçün kontentin hazırlanması, media vasitəsilə xidməti məlumatların çatdırılması formaları, vizual kommunikasiyalar üzrə ekspert Fərid Rzazadə vizual elementlərin hekayəyə daxil edilməsi, rəqəmsal media üzrə ekspert Şəfəq Mehrəliyeva isə kommunikasiya planın hazırlanması mövzularında təlim keçiblər.

# Tərəfdaşlıqla formalaşan gələcək

## Təhsilin inkişafına dəstək vermək istəyənlər bir araya gəldi

**Təhsilin İnkişafı Fondu “Tərəfdaşlıqla formalaşan gələcək” adlı tədbir keçirib. Dövlət və özəl sektorun nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri Fondun hesabat tədbiri də adlandırmaq olardı. Belə ki, TİF-in 3 illik fəaliyyətini əks etdirən videoçarx və Fondun İdarə Heyətinin sədri Elnur Nəsibovun indiyədək ən çox maraq doğuran layihə - “TələbəPlus” proqramı ilə bağlı təqdimatı olub.**



### Təhsil sahəsində innovativ layihələr və proqramların hazırlanması Fondun əsas məqsədlərindəndir

Elnur Nəsibov təhsilin iqtisadiyyata inteqrasiyasının, dövlət-özəl tərəfdaşlığının, təhsil sahəsində innovativ layihələr və proqramların hazırlanmasının Fondun əsas məqsədlərindən olduğunu bildirib.

E.Nəsibov Təhsilin İnkişafı Fondunun təhsilin bütün pillələrində təhsilalanlara və təhsilverənlərə yönəlik müxtəlif layihələr həyata keçirdiyini, infrastruktur layihələri icra etdiyini, habelə təhsil sahəsində dövlət-özəl tərəfdaşlığını təşviq etdiyini vurğulayıb. Fondun əsas tərəfdaşlarının dövlət və özəl ali təhsil müəssisələri, sənaye qurumları, banklar və maliyyə sistemləri şirkətləri, yerli və beynəlxalq özəl sektor qurumları olduğunu qeyd edən sədr bütün tərəfdaşlara təşəkkürünü bildirib.

### Kapital Bank TİF-lə birlikdə daha 2 layihə hazırlayır

Kapital Bankın İdarə Heyətinin üzvü Fərid Hidayətzadə təmsil etdiyi qurumun sosial məsuliyyət çərçivəsində Elm və Təhsil Nazirliyi ilə bir çox layihələr həyata keçirdiyini, ölkəmizin gələcəyində əhəmiyyətli rola malik olan tələbələrə töhfə verməkdən qürur duyduğunu bildirib. O, “TələbəPlus” kartının tələbələrə xüsusi imtiyazlar təqdim etməklə yanaşı, onların gündəlik həyatlarını daha rahat və rəqəmsal bir müstəviyə keçirəcəyini, tələbəlik dövründən maliyyə əlçatanlığını təmin edəcəyini, eləcə də gündəlik xərclərini daha səmərəli şəkildə izləmək fürsəti yaradacağını vurğulayıb. F.Hidayətzadə əlavə edib ki, TİF-lə daha 2 layihə üzərində çalışırlar.

### “Visa” beynəlxalq ödəmə texnologiyaları şirkəti Azərbaycan təhsilinə dəstək göstərməyə hazırdır

“Visa”nın Azərbaycan üzrə ölkə meneceri Nurlan Hacıyev rəqəmsal ödəmələrdə dünya lideri olan “Visa” beynəlxalq ödəmə texnologiyaları şirkətinin Azərbaycan təhsilinə dəstək göstərməyə hər zaman hazır olduğunu qeyd edib və bu layihənin bir hissəsi olmasından məmnunluq hissini bildirib.

### “Özümü şanslı tələbələrdən hiss edirəm”

“TələbəPlus” kartının ilk istifadəçilərindən olan Azərbaycan Texniki Universitetinin II kurs magistr tələbəsi Həmidə Zeynalzadə tələbə kartları alan 20 ail təhsil müəssisəsi arasında AzTU-nun da olmasına sevinir, özünü şanslılardan sayır: “Tələbə plus kartı çoxfunksiyalıdır. Artıq kitab almaq üçün muzeylərdə yararlanmışam. “Walt” tətbiqindən çox istifadə edirəm. Bir qadın olaraq endirim imkanları məni xüsusilə sevindirir. Özümü çox şanslı tələbələrdən hiss edirəm. Məsələn, yaxın rəfiqəm TİF-lə müqaviləsi olmayan universitetdə təhsil alır. Onun mənə həsədlə baxdığını gördükcə şanslı olduğumu hiss edirəm”.

Nəqliyyat vasitələrində endirimi isə səbirsizliklə gözləyir: “Nəqliyyatdan az istifadə edən biri belə gün ərzində azı 2-3 manat nəqliyyata xərcləyir. Doğulduğum Hacıqabul rayonuna da gedəndə daha çox pul çıxır. Odur ki, nəinki şəhərlərarası nəqliyyatda, nəqliyyatın bütün növlərində ölkədaxili gedişlərdə endirim arzusu ilə Təhsilin İnkişafı Fondunun elan edəcəyi yenilikləri səbirsizliklə gözləyirəm”.

### “Tərəfdaşlıqla formalaşan gələcək” də yeni əməkdaşlıqlar başladı

Tədbirdə Təhsilin İnkişafı Fondu Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı ilə əməkdaşlıq memorandumu imzalayıb. Sənədi Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının sədri Araz Paşayev imzalayıblar.

Növbəti əməkdaşlıq memorandumu Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov ilə “Azərbaycan Nəşriyyatları Assosiasiyası”nın İdarə Heyətinin sədri Şəmil Sadiq arasında imzalanıb.

Yeni əməkdaşlıqlar da uzaqda deyil. Belə ki, Bakı Kitab Mərkəzinin əməkdaşı Cəmilə Əsgərova tanışlıq məqsədi ilə tədbirdə iştirak edib: “Təhsilin İnkişafı Fondunun “TələbəPlus” kartı barədə məlumatlıyıq. TİF-in tədbirində layihələr və yeniliklərlə yaxındn tanış olmaq məqsədi ilə təmsil olunuruq. TələbəPlus-a biz də qoşulacağıq”.

C.Əsgərova deyib ki, müəllimlər üçün nəzərdə tutulan “Təhsil kartı”nda da TİF-lə əməkdaşlığa hazırdırlar: “Ümumiyyətlə, təhsilə hər cür dəstək verməyə hazırıq.

“Nar”ın PR və Korporotiv ünsiyyət departamentinin rəhbəri Hökümə Kərimova deyib ki, “Nar” təhsil sahəsində fərqli layihələrə dəstək verir: “Korporotiv sosial məsuliyyət çərçivəsində çalışırıq ki, Bakıda və regionlarda maarifçi layihələrə dəstək olaq, TİF-lə də əməkdaşlığa hazırlaşırıq, birlikdə nə edə biləcəyimizə baxacağıq”.

H.Kərimova əlavə edib ki, “TələbəPlus”-la bağlı eşitmişik və ümumi müzakirələrimiz olub. 2025-ci ildə daha dəqiq planlarımız olacaq”.

Tədbir Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində fəaliyyət göstərən Cadenza Orkestrinin təqdimatında bədii hissə ilə yekunlaşıb.

**Ruhiyyə DAŞSALAHLI**

# Azərbaycanın ilk qadın şərqşünas alimi





**Bakı Dövlət Universitetində (BDU) görkəmli şərqşünas-alim, professor Aida İmanquliyevanın anadan olmasının 85 illik yubileyinə həsr olunmuş Respublika elmi konfransı keçirilib.**

**"Ərəbşünaslıq və şərqşünaslıq: müasir dünyada mədəniyyətlərarası dialoq" mövzusunda təşkil edilən tədbirdə BDU-nun rektoru Elçin Babayev, AMEA prezidenti İsa Həbibbəyli, Milli Məclisin deputatları iştirak ediblər.**

### "Aida İmamquliyeva Azərbaycanda ərəb ədəbiyyatşünasları məktəbinin yaradıcısıdır"

BDU-nun rektoru Elçin Babayev açılış nitqi ilə çıxış edərək bildirib ki, Azərbaycanın XX əsrdə dünya elminə bəxş etdiyi parlaq imzalar arasında görkəmli şərqşünas alim, gözəl elm təşkilatçısı, nüfuzlu pedaqoq, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın özünəməxsus yeri var. O, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın elmlər doktoru və professor, ərəb-məhcər ədəbiyyatının tədqiqatçısı, ərəb ədəbiyyatşünasları məktəbinin yaradıcısıdır.

E.Babayevin fikrincə, bunlar görkəmli alim Aida İmanquliyevanın milli kökə, xalqa bağlı olan, milli yaddaşın qorunmasına xidmət edən elmi irsinin kiçik bir hissəsidir. XX əsr Azərbaycan mətbuatının əsas simalarından olan, görkəmli jurnalist və pedaqoq Nəsir İmanquliyevin və yüksək ziyalılığı ilə seçilən Gövhər İmanquliyevanın ailəsində dünyaya gələn Aida xanımın əhatə olunduğu saf mühit bu parlaq şəxsiyyətin gələcək uğurlarını şərtləndirən əsas amillərdəndir: "Məhz bu mühitin möhkəm təməlləri sayəsində formalaşan Aida xanım orta təhsilini qızıl medalla başa vurub, BDU-nun Şərqşünaslıq fakültəsinə daxil olub. Universiteti fərqlənmə diplomu ilə bitirən Aida İmanquliyeva təhsilini aspiranturada davam etdirib, orijinallığı, elmi yenilikləri, əhatəliliyi ilə seçilən namizədlik və doktorluq dissertasiyalarını müdafiə edib".

Rektor Aida İmanquliyevanın elmi yaradıcılığından danışaraq deyib ki, o, 30 il Şərq mədəniyyətini, mənəvi dəyərlərini, ictimai-siyasi fikrini araşdırıb yaradıcılığı ilə Azərbaycan şərqşünaslıq elminin inkişafı tarixində parlaq səhifə açıb: "Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur. Aida xanım elmi fəaliyyəti dövründə bir sıra sanballı əsərlər yazıb, eyni zamanda respublikamızda və xarici ölkələrdə keçirilən nüfuzlu beynəlxalq konfranslarda yüksək elmi səviyyəsi ilə seçilən məruzələrlə çıxış edib".

### BDU-nun Şərqşünaslıq fakültəsində ərəbşünas kadrların hazırlanması işinə töhfə verib

Rektor Aida İmanquliyevanın BDU-nun Şərqşünaslıq fakültəsində ərəbşünas kadrların hazırlanması işinə verdiyi böyük töhfəyə diqqət çəkib: "20 ildən artıq müddətdə ərəb ədəbiyyatından dərs deyib, mühazirələr oxuyub, xüsusi kurslar keçib, dissertasiya və diplom işlərinə rəhbərlik edib. Onun bilavasitə rəhbərliyi altında Ərəb filologiyası şöbəsində 10-dan çox namizədlik dissertasiyası müdafiə edilib, ərəb ədəbiyyatının, ərəb-Azərbaycan ədəbi əlaqələrinin müxtəlif sahələrini araşdıran monoqrafiyalar, kitablar yazılıb. Aida İmanquliyeva yüksək intellekti, ziyalılığı, kübarlığı, xeyirxahlığı, insanpərvərliyi ilə örnək bir ömür yaşayıb, onu tanıyanların qəlbinə silinməz izlərlə əbədi həkk olunub".

Sonra professor Aida İmanquliyevanın zəngin həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

### "Professor Aida İmanquliyevanın elmi fəaliyyəti Şərqlə Qərbi vəhdət şəklində öyrənməyə, mədəniyyətlərarası dialoqa həsr olunub"

AMEA prezidenti, akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, professor Aida İmanquliyeva Azərbaycan şərqşünaslıq məktəbinə yeni filoloji istiqamət gətirib. Onun ərəb ədəbiyyatına həsr etdiyi tədqiqatlar, monoqrafiyalar, məqalələr, yetirmələrinin yazdığı əsərlər şərqşünaslığın filoloji, ədəbiyyat qolunu inkişaf etdirib. Görkəmli alim ərəb mühacirət ədəbiyyatına dair əsərləri ilə Azərbaycan, bütövlükdə dünya şərqşünaslıq elminə əvəzsiz töhfələr verib.

Milli Məclisin sədr müavini, akademik Rafael Hüseynov isə bildirib ki, şərqşünaslıq elminin əsasını mədəniyyətlər, dinlər, insanlar arasında körpü yaratmaq təşkil edir. Professor Aida İmanquliyevanın da bütün elmi fəaliyyəti Şərqlə Qərbi vəhdət şəklində öyrənməyə, mədəniyyətlərarası dialoqa həsr olunub. Bu baxımdan Aida İmanquliyeva Azərbaycan elminin, ziyalılığının işığı kimi daim parlayacaq.

Milli Məclisin deputatı, professor Jalə Əliyeva, BDU-nun Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, BDU-nun ümumi dilçilik kafedrasının müdiri, akademik Nizami Cəfərov, Bakı Yunus Əmrə İnstitutunun direktoru Səlcuk Karakılıç, BDU-nun ərəb filologiyası kafedrasının müdiri, dosent Vüqar Qaradağlı çıxışlarında professor Aida İmanquliyeva ilə bağlı xatirələrini bölüşüb, onun Azərbaycanın elm və təhsil tarixindəki müstəsna rolundan, cəmiyyətə, elmə, təhsilə, mədəniyyətə verdiyi əvəzsiz töhfələrdən danışıblar. Qeyd olunub ki, Sərq-Qərb mədəni əlaqələrinin inkişafında, Azərbaycan fəlsəfi fikrinin islam aləmində yayılmasında professor Aida İmanquliyevanın tədqiqatları mühüm əhəmiyyət kəsb edir.

Konfrans işini 8 bölmə iclası ilə davam etdirib.

**Ruhiyyə DAŞSALAHLI**

# "Təkcə yazıları ilə deyil, vətəndaşlığı ilə də dərs keçib"

## Şirməmməd Hüseynovun yubiley tədbirindən reportaj

**Bakı Dövlət Universitetində (BDU) görkəmli alim və mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynovun 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan mediası: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib. Tədbirdən əvvəl konfrans iştirakçıları Fəxri xiyabanda Şirməmməd Hüseynovun məzarını ziyarət edib və onun xatirəsini ehtiramla yad ediblər. Sonra konfrans iştirakçıları BDU-nun Jurnalistika fakültəsinin Milli mətbuat tarixi kafedrasında Şirməmməd Hüseynovun xatirəsinə həsr olunmuş guşə ilə tanış olublar.**







### "Əsl müəllim kimi ömrünü jurnalistlərin yetişdirilməsinə həsr edib"

Tədbir BDU-nun akt zalında davam edib. Konfransın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, professor Şirməmməd Hüseynov görkəmli mətbuat tədqiqatçısı, nüfuzlu alim, unudulmaz müəllim kimi şərəfli bir ömür yaşayıb. Şirməmməd Hüseynov hələ Moskvada aspiranturada oxuyarkən araşdırmalarına başlayıb və bütün elmi yaradıcılığı boyu milli Azərbaycan mətbuatının araşdırılmasına böyük əmək sərf edib: "Professor Şirməmməd Hüseynov böyük bir ənənənin, tarixi missiyanın, "Əkinçi" məktəbinin davamçısı idi. Bu ənənə XIX əsrin sonu, XX əsrin əvvəllərində yaranan və formalaşan, klassik mətbuat xadimlərimizin milliliyə, vətənpərvərliyə əsaslanan ənənəsi idi. Şirməmməd müəllimin elmi və publisistik yazıları klassik mətbuat xadimlərimizlə müasir dövrümüz arasında bir körpü rolunu oynayır. Alim həmin dövrün ziyalılarının həyat və yaradıcılığını, milli mətbuat orqanlarımızın fəaliyyətini bizə yeni tərzdə, yeni təqdimatda çatdırır. Həm də sovet dövründə öyrənilməmiş Azərbaycan mətbuatının zəngin, maarifçi materialları ilə tanış edir".

Rektor diqqətə çatdırıb ki, Şirməmməd Hüseynov bacarıqlı mətbuat tarixçisi olmaqla bərabər, həm də gözəl pedaqoq idi: "O, əsl müəllim kimi ömrünü müstəqil Azərbaycanın jurnalistlərinin yetişdirilməsinə həsr edib. Şirməmməd müəllimin yüksək şəxsi keyfiyyətləri müəllimliyi ilə vəhdət təşkil edirdi. O, səmimiyyətə, təvazökarlığa, qarşılıqlı hörmətə pedaqoji fəaliyyətində böyük əhəmiyyət verib, tələbələrindən də bunu tələb edib. Məhz Şirməmməd Hüseynov kimi müəllimlərimizin əməyinin nəticəsidir ki, müstəqil Azərbaycan mətbuatı öz tarixi irsinə, "Əkinçi" ənənələrinə söykənərək yenidən formalaşıb, inkişaf mərhələsinə qədəm qoyub. Bu gün Azərbaycan jurnalistikasında milli mətbuatımızın ənənələrini davam etdirən minlərlə jurnalist çalışır, mətbuatın inkişafına töhfə verir. Onun tələbələri, davamçıları zəngin milli mətbuat ənənələrini uğurla inkişaf etdirirlər".

### Tarix yaradan jurnalist-alim olub

Sonra professor Şirməmməd Hüseynovun həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş olunub.

Türkiyənin Üsküdar Universitetinin rektoru Nazife Güngör böyük alim Şirməmməd Hüseynovun millətinə, xalqına xidmət edən, tarix yaradan bir jurnalist-alim olduğunu vurğulayıb. O, Şirməmməd Hüseynovun öz şəxsiyyəti və yaradıcılığı ilə jurnalistika təhsilində yeni yol açdığını bildirib.

Milli Məclisin deputatı, Bakı Slavyan Universitetinin Jurnalistika kafedrasının müdiri Vüqar Rəhimzadə bildirib ki, Şirməmməd Hüseynov müasir dövrün çağırışlarına cavab verən, ölkənin ictimai-siyasi mühitinə təsir imkanlarına malik minlərlə jurnalist yetişdirib. Tədqiqatçı kimi tariximizin ən önəmli səhifələrini araşdırıb. Görkəmli alimin müəyyən etdiyi prinsiplər hər bir jurnalist üçün məktəb sayıla bilər.

Azərbaycan Mətbuat Şurasının sədri, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid isə qeyd edib ki, Şirməmməd Hüseynov təkcə yazıları ilə deyil, vətəndaşlığı ilə də dərs keçib və digərlərinə nümunə olub. Bu məktəbin yetirmələri görkəmli alimdən həm də cəmiyyəti maarifləndirmək, xalqa xidmət etmək missiyasını öyrəniblər.

"ARB24" telekanalının direktoru Radik İsmayılov, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli, Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev çıxışlarında Şirməmməd Hüseynovun elmi-pedaqoji fəaliyyətini ləyaqətlə, vicdanla, təmənnasız və peşəkarlıqla yerinə yetirdiyini bildirib, xatirələrini bölüşüblər.

### "Onunla daim qürur duymuşuq"

Sonda görkəmli alimin qızı, Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova çıxış edərək konfransın təşkilinə görə minnətdarlığını bildirib. O, qeyd edib ki, Şirməmməd Hüseynov öz xalqını çox sevən, son dərəcə dürüst və təmiz insan idi: "Biz onunla daim qürur duymuşuq və özümüzü Şirməmməd Hüseynovun məsləkdaşı hesab etmişik. Çox sevinirəm ki, atamın yetirmələri, tələbələri də bu yolla gedirlər".

BDU-da təşkil edilən yubiley tədbirində Şirməmməd Hüseynovun qızı Fərəh Əliyeva və nəvələri də iştirak edib. Konfrans öz işini bölmə iclasları ilə davam etdirib.

### "Şirməmməd Hüseynovun təhdidlərlə üzləşdiyi vaxtlar da olub"

Həyat yoldaşı jurnalist Ülkər Hüseynova "Azərbaycan müəllimi"nə bildirib ki, mətbuatı araşdırıb və indiyədək Şirməmməd Hüseynovla bağlı yazılanlar qədər heç kim barəsində yazılmayıb: "Moskvada yaşayan bir tələbəsinin kövrək xatirələrini oxudum, hətta 70 yaşlı tələbəsinin belə xatirəsində, yaddaşında yaşayırsa, deməli, xalq üçün vacib, lazımlı insan olub. O, xalq adamı olub. Bütün amalı, məqsədi, məramı dövləti, dövlətçilik maraqlarını qorumaq olub. Dürüstlüyü, ədaləti, açıq sözlülüyü ilə hər zaman bu məqsədinə sadiq qalıb. Düzdür, bu qərarlılığının onun özü üçün ağır nəticələr doğurduğu, təqiblərə məruz qaldığı, təhdidlərlə üzləşdiyi vaxtlar da olub. İşə gələndə əlində "Şirməmmədə ölüm" yazılmış plakatlarla duran bir qrup insanla qarşılaşmışdı. Qarabağı əldə silahla, müharibə ilə, döyüş meydanında qazana biləcəyimiz fikrinə inanan və bu fikri müdafiə edənlərdən biri idi. Fikrimcə, o, əsl vətəndaş kimi, şəxsiyyət kimi ömür sürüb. Bəxtiyar Vahabzadə onun haqqında yazmışdı: "Şirməmməd Hüseynov - haqqın öz səsi, ləyaqət, dəyanət mücəssəməsi".

Ülkər xanım özünü xoşbəxt sayır: "Həyat yoldaşının ölümündən sonra 100 illiyinin təntənəli qeyd olunduğunu görmək hər qadına nəsib olmur. Mən də 90 yaşıma yaxınlaşıram".

### "Ömür vəfa etsə, yeni kitabını çap etdirəcəyəm"

Şirməmməd Hüseynovun 100 illik yubiley tədbirləri BDU-dakı konfransla yekunlaşmayacaq.

"Bilirəm ki, Milli Kitabxana 600 səhifəlik biblioqrafiya hazırlayıb. Bu günlərdə həmin biblioqrafiya çapdan çıxıb. Bu günlərdə təqdimat mərasimi keçiriləcək. Nizami Muzeyində Rafael Hüseynov da 100 illiyə həsr olunmuş yubiley tədbiri planlaşdırıb".

Ülkər xanım deyir ki, onun özünün də bəzi planları var: "İndiyədək Şirməmməd Hüseynov haqqında 3 kitab hazırlamışam. Bu kitablarda onun haqqında yazılanları toplamışam. Dördüncü kitabı da hazırlayıram. Ömür vəfa etsə, "İstiqlal Şirməmməd Hüseynovla" adlandırdığım bu kitabı çap etdirəcəyəm".

**Ruhiyyə DAŞSALAHLI**

REPORTAJ

# “BALACA ALİM”LƏRİN BAĞÇASI

## Dövlət - özəl əməkdaşlığı: məktəbəqədər təhsildə əlçatanlıq

Bura “Balaca alim” özəl uşaq bağçasıdır. Dünənə qədər valideynlərin ürəyində “kaş mənim də övladım bura gedəydi”arzusu ilə yanından ötüb keçdiyi, balacaların həm əyləndiyi, həm də öyrəndiyi təhsil xidmətləri göstərən gözəl bir məkandır. Və hər bir valideyn bura öz övladını qoymaqla yaradılan imkan və şəraitdən bəhrələnmək istəyində idi.

Onu da yaxşı bilirik ki, özəl məktəbəqədər təhsil müəssisələrində təhsil haqqı əksər valideynlərin maddi imkanlarına uyğun olmadığından, müəyyən bir təbəqə həmin xidmətlərdən istifadə edə bilirdi.

Artıq arzular, xəyallar gerçəkliyə çevrilib. Özəl bağçalara uşaqların qəbul olunması üçün valideynlərə unikal bir fürsət yaradılıb. Necə? Bu və digər suallara adıçəkilən məktəbəqədər təhsil müəssisəsinə təşkil olunan və Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdir müavini Ayla Həsənova Məmmədovanın, nazirliyin Satınalmalar və qrantlar sektorunun müdiri Vüsalə Əliyevanın, Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Məktəbəqədər təhsilin təşkili şöbəsinin müdiri İlahə Rəsulovanın, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, məktəbəqədər təhsil mütəxəssisi Rasif Dünyamalıyevin, Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının sədri Pərvinə Qədimovanın, Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsilin pedaqogikası kafedrasının baş müəllimi Xalidə Musayeva Həmidova, eləcə də “Azərbaycan müəllimi”nin, digər media nümayəndələrinin, qonaqların da iştirak etdikləri mediaturda aydınlıq gətirilib.









### Dövlət-özəl əməkdaşlığının uğurlu nəticəsi

Uşaqları təhsilə erkən yaşlardan cəlb etmək, onların hərtərəfli inkişafının təmin olunması üçün məktəbəqədər təhsildə əlçatanlığın təmin olunması Elm və Təhsil Nazirliyinin təhsil siyasətinin strateji istiqamətlərindən biri olduğundan son illər məktəbəqədər təhsil sisteminin inkişafı yönündə əsaslı dönüşün yaradılmasına müvəffəq olunub. Məktəbəqədər təhsilə bütün uşaqların cəlb olunması məqsədilə alternativ modellər hazırlanaraq onların reallaşdırılmasına başlanılıb.- Və həmin modellərdən biri- dövlət-özəl əməkdaşlığının uğurlu nümunəsi ilə “Balaca alim” uşaq bağçasında tanış olduq. Qeyd edək ki, adıçəkilən məktəbəqədər təhsil müəssisəsi Elm və Təhsil Nazirliyi tərəfindən elan olunan “Özəl məktəbəqədər təhsil müəssisələri üçün qrant müsabiqəsi” çərçivəsində seçilən özəl bağçalardan biridir.

### Layihə çərçivəsində bağçaya 42 uşaq qəbul edilib

“Balaca alim” məktəbəqədər təhsil müəssisəsinin təsisçisi və direktoru Nayma Qəhrəmanova mediatur iştirakçılarına rəhbərlik etdiyi bağça haqqında məlumat verib. Qeyd olunub ki, “Balaca alim” özəl uşaq bağçası 9 ildir fəaliyyət göstərir və “Günlük qayğı” adlanan Amerika modulları əsasında məşğələlər aparılır. Burada balacalar üçün xüsusi hazırlanmış proqramda idraki, sosial, motorik və emosional inkişafı nəzərdə tutan məşğələlər aydın şəkildə təsvir edilib. Hər həftə üçün mövzu hərf, say, həndəsi fiqur, rəng və s. uyğun məşğələlərlə müşayiət olunmaqdadır.

Bağça həmçinin əlavə olaraq STEM+A proqramının sistemli şəkildə tədris edilməsini təmin edə bilir. Məşğələlər özəl olaraq bağça üçün Azərbaycan dilində nəşr edimiş “Balaca alim” 4 hissəli kitablar vasitəsilə (“Bədənim”, “Mətbəxdə”, “Bağda”, “Su ilə əyləncə”) və yaş səviyyəsinə uyğun təsrübələrin aparılmasına imkan verən xüsusi təchiz edimiş laboratoriyalarda həyata keçirilir. Bağçanın adı da məhz bu səbəbdən “Balaca alim” olaraq seçilib. Burada tərbiyə alan uşaqlara ətraf aləmi dərk etmə, müstəqillik və liderlik ruhu, “niyə?”, “nə üçün?” sualları ilə sorğulama kimi keyfiyyətlər aşılanır. Faktoloji bilikləri yükləməklə deyil, dərketmə bacarıqlarını formalaşdırmağa üstünlük verilir. Bu keyfiyyətlər məktəbəqədər təhsil müəssisəsindən I sinfə gedən “Balaca alimlər”i fərqləndirir.

Bağçada ümumilikdə 100-120 uşağa xidmət nəzərdə tutulur. Hazırda məktəbəqədər təhsil müəssisəsində 6 qrupda 76 uşağa xidmət göstərilir və onlarla 7 tərbiyəçi-müəllim və 8 köməkçi müəllim məşğul olur. Qruplar 3-4, 4-5 və 5-6 yaşlar olmaqla ayrılmışdır. Qruplarda uşaqların sayı 12-19 nəfər arasındadır.

Hazırda layihə üzrə bağçaya 42 uşaq qəbul edilib. Nayma Qəhrəmanovanın sözlərinə görə, layihə daha keyfiyyətli məktəbəqədər təhsili ailələr üçün əlçatan edir: “Belə ki, bağçamıza övladını qoymaq istəyən valideynlərin sayı daha çox olurdu, lakin aylıq 500 manat təhsil haqqı ailə büdcəsi üçün böyük yük olduğundan bir çoxları bunu edə bilmirdi. Bu yükün yarısını - 250 manatını dövlətin öz üzərinə götürməsi ilə bir çox ailələrin, o cümlədən şəhid və qazi övladlarının müasir avadanlıqlarla və proqramla təchiz olunmuş özəl bağçalarda təhsil almasına imkan verəcək. Dövlət məktəbəqədər təhsil müəssisələrində sıxlıq olduğunu nəzərə alsaq Elm və Təhsil Nazirliyinin özəl bağçaların imkanlarından istifadəetmə qərarı daha çoxlu sayda uşağa keyfiyyətli tədrisi təmin etməklə yanaşı, özəl bağçaların da böyüməsinə, genişlənməsinə və inkişafına böyük təsiri olacaq”.

### Qəlblərdəki sevinc gözlərə yansayır ...

Aylin, Serenay, Musa, Amil, Nigar. Bu balacaların 4 yaşları var. “Balaca alim” ailəsinə qrant çərçivəsində qoşulan uşaqlardandırlar. Bizi görən kimi üstümüzə qaçırlar. Sevinirlər, nə ilə məşğul olduqlarını, nələri öyrəndiklərini sanki biribiriləri ilə yarışırlarmış kimi dilboğaza qoymadan bizə danışırlar. Deyirlər ki, bu bağça onların xoşlarına gəlir, burada hər şey gözəl və əyləncəlidir. Və bir azdan bu qrupdakı 19 uşaq üçün “Nağıl saatı” başlayır. Balacalar tərbiyəçi müəllimləri Rəhiməxanım Nuriyevanın yanında oturaraq onun danışdığı “Əlcək” nağılını dinləyirlər. Hamı maraqla nağıla qulaq asır. Nağıl bitir və balacalar köməkçi müəllim Gülnar Cəfərovanın müşayiəti ilə Yeni il şənliyinə hazırlaşmaq üçün növbəti məşqlərini edirlər. Rəhiməxanım müəllim deyir ki, uşaqlar elə ilk gündən bağçaya adaptə olublar və çox fəaldırlar.

Bağçanın laboratoriyası bizə maraqlı gəldiyindən ora baş çəkirik. 5-6 yaşlı uşaqlar burada laboratoriya işləri aparırdılar. Balaca alimlər vulkan püskürməsi ilə bağlı təcrübəni sınaqdan keçirirdilər.Təcrübələr aparmaq üçün lazım olan müxtəlif öçülü kolbalarla, avadanlıqlarla təchiz olunan laboratoriyada məşğul olan uşaqlar hələ erkən yaşlarından elmə yönəlik olurlar.

Olduğumuz rəsm, oyun və musiqi zallarında və digər otaqlarda təbiyəçi və köməkçi müəllimlər ayrı-ayrı yaş qrupları üzrə uşaqlara böyük həvəs və maraqla həm təcrübə əsaslı, həm də bilik əsaslı məşğələlər keçirdilər. Balacalar maraqla bu məşğələlərdə iştirak edirdilər. Qəlblərindəki sevinc onların gözlərinə yansayırdı...

### “Cəmiyyət tərəfindən yaxşı qarşılanması bizi sevindirir”

Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Məktəbəqədər təhsilin təşkili şöbəsinin müdiri İlahə Rəsulova bizimlə söhbəti zamanı deyir ki, dövlət-özəl əməkdaşlığı çərçivəsində həyata keçirilən bu layihənin cəmiyyət tərəfindən yaxşı qarşılanması bizi sevindirir: “Elm və Təhsil Nazirliyi tərəfindən elan olunan “Özəl məktəbəqədər təhsil müəssisələri üçün qrant müsabiqəsi”nin əsas məqsədi 2024-2025-ci tədris ilində dövlət məktəbəqədər təhsil müəssisələrinə qəbul oluna bilməyən uşaqların seçilmiş özəl məktəbəqədər təhsil müəssisələrində boş qalan yerlərə cəlb edilməsi və onların təhsil haqlarının bir hissəsinin qrant vasitəsilə maliyyələşdirilməsindən ibarətdir. Bu qrant müsabiqəsi çərçivəsində seçilmiş özəl məktəbəqədər təhsil müəssisələrində məktəbəqədər təhsilə cəlb olunmuş hər bir uşağın aylıq təhsil haqqının 250 manat məbləğində olan hissəsinin qrant hesabına qarşılanması, qalan məbləğin isə valideyn tərəfindən ödənilməsi nəzərdə tutulub. Valideynlərin maliyyə imkanlarına yardım edilməklə müəyyən qədər əlçatanlıq təmin edilir. Bununla da qarşıya qoyduğumuz məqsədimizə -daha çox uşağın məktəbəqədər təhsillə əhatə olunmasına nail olmağa daha bir addım yaxınlaşırıq”.

İlahə Rəsulova qeyd edir ki, qrant müsabiqəsi çərçivəsində özəl bağçalara qeydiyyat yenidən başlayıb və qeydiyyat prosesi **www.bq.edu.az** portalı üzərindən həyata keçirilir.

Elm və Təhsil Nazirliyi Satınalmalar və qrantlar sektorunun müdiri Vüsalə Əliyeva da bildirir ki, mediatur iştirakçılara özəl bağçalarda tətbiq olunan təhsil proqramları, öyrətmə metodları və uşaqların inkişafına yönəlik həyata keçirilən fəaliyyətlər haqqında ətraflı məlumat verməyi hədəfləyir. Bu tədbir özəl məktəbəqədər təhsil müəssisələrinin fəaliyyəti ilə yaxından tanış olmaq, müəllimlər və tərbiyəçilərlə görüşmək, həmçinin tədris mühitinin uşaqların psixoloji və emosional inkişafına necə təsir göstərdiyini müşahidə etmək üçün böyük bir fürsət təmin edir: “Düşünürük ki, bu, eyni zamanda bağçaların təhsil keyfiyyətinin artırılması, innovativ təhsil yanaşmalarının tətbiqi və gələcəkdə daha effektiv tədris üsullarının inkişaf etdirilməsi üçün faydalı müzakirələrə zəmin yaradacaqdır”.

Məktəbəqədər təhsilə cəlb edilmiş uşaqların əhatə dairəsinin genişləndirilməsi və məktəbəqədər təhsilə əlçatanlığın təmin edilməsinin Elm və Təhsil Nazirliyinin əsas prioritetlərindən biri olduğunu söyləyən sektor müdiri bu istiqamətdə bir sıra mühüm addımların atıldığını diqqətə çatdırır. Onun sözlərinə görə, bunlardan biri də özəl məktəbəqədər təhsil müəssisələrinin potensialından faydalanmaqdır.

Vüsalə Əliyevanın verdiyi məlumatdan o da aydın olur ki, ilk mərhələdə ümumilikdə 42 özəl məktəbəqədər təhsil müəssisəsi qrant müsabiqəsində iştirak üçün müraciət edib. Müraciət edən müəssisələrin təşkilati-hüquqi sənədləri diqqətlə incələnib, bu prosesin bir hissəsi olaraq müəssisələrin infrastrukturunun və icra potensialının qiymətləndirilməsi məqsədilə yerində baxışlar həyata keçirilib.Baxışlar zamanı bağçaların fiziki şəraiti, tədris və oyun avadanlıqları, müəllim heyətinin keyfiyyəti kimi mühüm aspektlərə xüsusi diqqət ayrılıb və son nəticədə 24 özəl bağça üzrə təxminən 1500-dək yer seçimə çıxarılıb. Bölgələrə gəldikdə isə müsabiqədə iştirak edənlər arasında Şirvan və Biləsuvar rayonlarından bağçalar mövcuddur”.

### Ekspertlər, təhsil mütəxəssisləri deyir ki...

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, məktəbəqədər təhsil mütəxəssisi Rasif Dünyamalıyev qeyd edir ki, “Balaca alim” paytaxtın ən prestijli, innovativ metodlarla, bir sıra ölkələrin qabaqcıl təlim texnologiyalarından istifadə edən özəl uşaq bağçalarından biridir. Elm və Təhsil Nazirliyinin bu layihəsi valideynlərə müəyyən dəstək verir və imkanlar yaradır: “Bu vəsilə ilə həm də özəl bağçalar inkişaf edəcək. Özəl sektor həmin sahəyə pul yatıracaq. Və bu təcrübə dünyanın bir sıra ölkələrində mövcuddur. Doğrudan da gözəl layihədir və daha çox uşağın məktəbəqədər təhsillə əhatə olunması istiqamətində atılan müsbət addımdır və mən bunu təqdir edirəm”.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin məktəbəqədər təhsilin pedaqogikası kafedrasının baş müəllimi Xalidə Musayeva Həmidova bu layihənin uşaqların məktəbəqədər təhsillə əhatəsinin daha da genişlənməsində əhəmiyyətli rolu olacağını söyləyir: “Bu gün məktəbəqədər təhsil sahəsində dövlət-özəl sektorun əməkdaşlığının bir nümunəsi ilə yaxından tanış olduq. Bu təqdirəlayiqdir və çox mükəmməl bir formatdır. Mən düşünürəm ki, alternativ modellər ortaya qoymaqla qısa bir zamanda daha çox uşağın məktəbəqədər təhsillə əhatə olunmasına, bütövlükdə bu sahənin dünya standartlarına uyğun şəkildə inkişafına nail ola bilərik”.

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının sədri Pərvinə Qədimova da layihənin əhəmiyyətini xüsusi vurğulayaraq belə innovativ metodlarla işləyən özəl uşaq bağçalarına gedən uşaqların hərtərəfli inkişafının onların gələcək məktəb həyatlarında mühüm rol oynadığını qeyd edib. “Hamımız şahidi olduq ki, bu bağçanın uşaqları laboratoriyada necə maraqlı təcrübə apardılar. Təbii ki, öyrənilənlər, qazanılan bacarıqlar uşaqların gələcəkdə yaradıcı, tədqiqatyönümlü inkişafına öz müsbət təsirini göstərəcək. Buradakı metodika uşaqların inkişafına, yaradıcı potensiallarının üzə çıxarılmasına yönəlikdir. Elm və Təhsil Nazirliyinin bu layihəsi həm də özəl bağçaların öz potensial və təcrübələrini, müxtəlif təhsil xidmətlərini bütün valideynlər üçün daha əlçatan etməsi üçün geniş imkan yaradır”.

### Valideynlər məmnundurlar

Valideyn Sudef Rəhimov oğlu Suadın bu bağçaya qəbul edilməsindən danışır. Deyir ki, Elm və Təhsil Nazirliyi tərəfindən elan olunan “Özəl məktəbəqədər təhsil müəssisələri üçün qrant müsabiqəsi”ndən xəbəri var idi. Həmin qrant çərçivəsində özəl bağçaların boş qalmış yerlərinə qəbul prosesi başlayan kimi portal vasitəsi ilə qeydiyyatdan keçib və arzu etdikləri “Balaca alim” uşaq bağçası ilə onun arasında ödəyəcəyi aylıq təhsil haqqı məbləği də qeyd olunmaqla məktəbəqədər təhsil xidmətinin göstərilməsi barədə müqavilə bağlanılıb. 500 manat məbləğində olan təhsil haqqının 250 manatını özü köçürüb, yerdə qalan məbləğ isə qrant hesabına qarşılanıb. Artıq bir aya yaxındır ki, övladı bu bağçaya gəlir və təhsil xidmətlərindən, uşaqlara olan diqqət və qayğıdan, aparılan məşğələlərdən olduqca razıdır.

Digər valideyn Nurlanə Süleymanova isə maddi baxımdan daha əvvəl özəl uşaq bağçasının imkanından yararlana bilmədiklərini söyləyir. Ancaq bu layihə onlara imkansızı imkana çevirməyə yardımçı olub. Artıq onun da övladı münasib qiymətə ən yüksək təhsil xidmətləri göstərən özəl bağçaya gedir. “Uşaqlarımızı peşəkarlara etibar etmişik. Övladlarımız üçün arzuladığımız gözəl təhsil xidmətlərini, hərtərəfli şəraiti və dəstəyi Elm və Təhsil Nazirliyi bizlərə verir”.

**Samirə KƏRİMOVA**
**Foto: Kənan QAFAROV**

# YAŞILLAŞAN UNİVERSİTETLƏRİMİZ DÜNYA REYTİNQİNDƏ

## “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində universitetlərimizdə “yaşıl universitet” konsepsiyasının inkişaf etdirilməsi və onların uğurlu nəticələri ali təhsil müəssisələrimizin reytinq mövqeyinə müsbət təsir göstərdi

**Universitetlər davamlı inkişafa necə töhfə verə bilər? Ali təhsil müəssisələrinin ölkənin yaşıl konsepsiyasında rolu nədir? Bu suallar bütün dünya ölkələrindən olan universitetlər üçün konseptual əhəmiyyət daşıyır. Dekabrın 13-də dünya ali təhsil müəssisələrinin davamlı inkşafa töhfəsini ölçən “UI GreenMetric World University Rankings ” tədqiqatının 2024-cü il üçün növbəti tədqiqatının nəticələri məhz bu suallara cavab verir. İndoneziya Universiteti tərəfindən 2010-cu ildə universitet kampuslarının davamlılığı səylərini ölçmək üçün hazırlanan tədqiqatın arayış hissəsində qeyd olunur ki, builki 15-ci nəşr 95 ölkədə 1477 qurumu əhatə edir. UI GreenMetric 2024 reytinqində Avropa, Asiya, Amerika, Yaxın Şərq, Okeaniya və Afrika ölkələri də daxil olmaqla 95 ölkədən 1477 ali təhsil müəssisəsi qiymətləndirilib.**

Builki reytinqə daha 300 universitet qoşulub ki, bu da qlobal şəbəkənin 25 faiz genişlənməsi deməkdir. Bu isə davamlı inkişafa artan qlobal öhdəliyi təsdiqləyir. Yeni iştirakçılara Əlcəzair, Keniya və Cənubi Koreya kimi 11 ölkədən universitetlər daxildir. Bu artım universitetlərin dəyişikliklərin formalaşdırılmasında və ekoloji məsuliyyətin təşviqində oynadığı aparıcı rolu nümayiş etdirir.

Reytinqdə məqsəd universitetlərin təmiz enerji, suya qənaət, tullantıların təkrar emalı, ekoloji nəqliyyatdan istifadə, davamlı inkişaf sahəsində ekoloji maarifləndirmə və tədqiqatların həyata keçirilməsi sahəsində nailiyyətlərini ölçməklə qlobal iqlim dəyişikliyi problemlərini öyrənməkdir.

Reytinq bütün dünyada universitetlərdə davamlılıq səyləri və institusional təkmilləşdirmələrlə bağlı mövcud şərtlər və siyasətlər üzrə onlayn sorğunun nəticələrini təqdim etmək məqsədi daşıyır. Universitet rəhbərlərinin və maraqlı tərəflərin diqqətini cəlb etməklə qlobal iqlim dəyişikliyinə, təmiz enerjiyə, suyun qorunmasına, tullantıların təkrar emalına, yaşıl nəqliyyata və davamlılıq üzrə təhsil və tədqiqatlara daha çox diqqət yetiriləcəyi gözlənilir.

Bu ilin reytinqinin mövzusu - “University UI GreenMetric World University Rankings: İrəliyə doğru yol” adlanır.

Reytinq müəllifləri qeyd edirlər ki, gələcək naminə dayanıqlı kampuslar qurmaq üçün kollektiv öhdəliyi gücləndirərək, bütün dünya üzrə universitetlərin daha çox iştirakını təşviq etməyə davam edəcəyik.

### UI GreenMetric qlobal dəyəri

Reytinq bir sıra meyarların qiymətləndirilməsinə əsaslanır: kampus infrastrukturu və onun ətraf mühitlə əlaqəsi; enerji siyasəti; suyun effektiv idarə edilməsi; tullantıların idarə edilməsi siyasəti; nəqliyyat vasitələrinin istifadəsi; ekoloji məsələlər üzrə tədrisin təşkili; ekoloji problemlərin tədqiqinə həsr olunmuş resurslar; Google Scholar tərəfindən indeksləşdirilmiş yaşıl mövzular üzrə dərc edilmiş elmi məqalələrin sayı.

Reytinqdə lider mövqeləri Wageningen University & Research (Hollandiya) və NottinghamTrent Universiteti (Böyük Britaniya) kimi yüksək nəticələrə malik universitetlər tutur. UI GreenMetric-in sədri, professor Riri Fitri Sari qeyd edib: “Builki rəqəmlər inkişafımızda mühüm mərhələni təmsil edir. Bu il reytinqə qoşulan hər bir universitet öz kampuslarını daha dayanıqlı və ekoloji cəhətdən təmiz obyektlərə çevirmək öhdəliyini nümayiş etdirərək çempiondur”.

### Reytinqin məqsədləri nələrdir?

Reytinq aşağıdakı hədəflərə yönəlib

* *təhsilin davamlılığı və kampusun yaşıllaşdırılması ilə bağlı akademik müzakirələrə töhfə vermək;*
* *universitet rəhbərliyi altında davamlı inkişaf məqsədləri ilə bağlı sosial dəyişiklikləri təşviq etmək;*
* *bütün dünyada ali təhsil müəssisələri (universitetlər) üçün kampus davamlılığının özünü qiymətləndirmə vasitəsi olmaq;*
* *hökumətləri, beynəlxalq və yerli ətraf mühitin mühafizəsi agentliklərini və cəmiyyəti şəhərcikdəki davamlılıq proqramları barədə məlumatlandırmaq.*



### Faydaları nələrdir?

UI GreenMetric-də iştirak universitetin beynəlmiləlləşməsinə və tanınmasına kömək edə bilər. Universitetlər dünyanın digər ali təhsil müəssisələri ilə rəqabət edərək “qlobal xəritədə” sabitliyə nail olurlar. UI GreenMetric-də iştirak universitetin veb saytına daxil olanların sayının artmasına səbəb ola bilər. Davamlı inkişaf məsələləri ilə əlaqədar daha çox qurum haqqında qeydlər, bir universitet kimi güclü dayanıqlılıq qayğısı universitet və onun məzunlarının ictimaiyyət tərəfindən tanınmanı artıra bilər.

### Türkiyə nümunəsi

Türkiyə universitetləri yaşıl kampusları ilə dünyanın zirvəsinə qalxıb. Ümumilikdə 94 universitet top-1000-ə daxildir, Türkiyə bu sahədə dünyada 1-ci yerə çıxıb. Dünyanın ekoloji cəhətdən ən təmiz universitetləri sıralamasında 6 universitet ilk 100-ə daxil olub. Türkiyə İtaliyadan sonra Avropada top-100-lükdə yer almış universitet sayına görə 2-ci, dünyada 5 - ci yerdədir. Ümumilikdə 45 universitet top-500-ə daxil olub. Bu göstəriciyə görə Türkiyə top-500-də ən çox universiteti olan ölkələrin reytinqində Avropada 1-ci, dünyada 2-cidir.

### Azərbaycanın “Yaşıl universitet” konsepsiyasının uğuru

Qeyd edək ki, ölkə başçısı İlham Əliyev tərəfindən 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması Azərbaycanın “Yaşıl universitet” konsepsiyasının uğurla həyata keçirilməsi üçün münbit şərait yaradıb. 2024-cü il ərzində Azərbaycan universitetləri yaşıl dünya naminə həmrəyliyini əməli fəaliyyəti ilə nümayiş etdirdi. İlk növbədə, “Yaşıl universitet” layihəsi çərçivəsində ali təhsil müəssisələrində ekoloji sağlamlaşdırma, enerjidən məqsədyönlü istifadə, tullantıların minimuma endirilməsi, yaşıl enerjiyə keçid, iqlim dəyişikliklərinin təsirləri ilə bağlı mövzularda çoxsaylı tədbirlər, elmi konfranslar keçirildi. “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində tələbələrin ekoloji maarifləndirmə səviyyəsinin yüksəldilməsi, ekoloji mədəniyyətin yaxşılaşdırılması ilə yanaşı, bu sahələrdə elmi-tədqiqatların aparılması da universitetlərimiz tərəfindən yüksək şəkildə təşviq olundu.

Dünyanın aparıcı reytinq şirkətlərindən olan GreenMetric World University Ranking beynəlxalq reytinqi ali təhsl müəssisələrinin “yaşıl universitet” quruculuğu yönündə səylərini nəzərə alır. Bu mənada “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində universitetlərimizdə “yaşıl universitet” konsepsiyasının inkişaf etdirilməsi və onların uğurlu nəticələri ali təhsil müəssisələrimizin adıçəkilən reytinq mövqeyinə müsbət təsir göstərdi.

“UI Greenmetric 2024” dünya universitetlərinin reytinqində Azərbaycan ali təhsil müəssisələrinin sayı bu il 3 dəfə artaraq 12-yə çatıb. Belə ki, ötən il reytinqə daxil olan 4 ali təhsil müəssisəsinin mövqeyi 2024-cü ildə daha da güclənib.

Cari ildə ilk dəfə Azərbaycanın 8 ali təhsil müəssisəsi “UI Greenmetric” dünya universitetlərinin reytinqinə daxil olub. Ümumilikdə, Azərbaycandan 6 ali təhsil müəssisəsi bu reytinqdə TOP-1000-də yer alır:




“UI Greenmetric 2024” dünya universitetlərinin reytinqində Azərbaycan ali təhsil müəssisələrinin sayı 3 dəfə artaraq 12-ə çatıb.

| Ali təhsil müəssisəsi | 2023 | 2024 |
|---|---|---|
| Qərbi Kaspi Universiteti | 650 | 439 |
| Azərbaycan Memarlıq və İnşaat Universiteti | 813 | 632 |
| Azərbaycan Dövlət İqtisad Universiteti | 1030 | 670 |
| Sumqayıt Dövlət Universiteti | 1173 | 1082 |
| Bakı Dövlət Universiteti | - | 607 |
| Azərbaycan Dövlət Neft və Sənaye Universiteti | - | 788 |
| Mingəçevir Dövlət Universiteti | - | 928 |
| Azərbaycan Texniki Universiteti | - | 1014 |
| Azərbaycan Dövlət Aqrar Universiteti | - | 1077 |
| Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti | - | 1247 |
| Bakı Avrasiya Universitet | - | 1334 |
| Azərbaycan Dövlət Pedaqoji Universiteti | - | 1388 |

### “Yaşıl universitet şəhərciyi”

Qeyd edək ki, dünyanın əksər universitetlərində “Yaşıl universitet şəhərciyi” (yaşıl kampus) konsepsiyası geniş yayılıb ki, bu da universitetdə ekoloji təcrübələrin tətbiqi, yaxşılaşdırılması, tələbə və işçilərin eko-mədəniyyət səviyyəsinin yüksəldilməsini əhatə edir.

“Yaşıl universitet” ətraf mühitin qorunmasına yönəlik fəaliyyət göstərən bir universitetdir: karbon dioksid emissiyalarını azaldır, tullantıları ayrıca toplayır, su və elektrik enerjisinə qənaət edir və ekoloji infrastrukturu inkişaf etdirir. Bu məqsədlər üçün müsbət ekoaksiyalar və ekofestivallar aparılır, ayrı-ayrı zibil toplama sistemi təşkil edilir, enerji səmərəliliyi artırılır, ərazi abadlaşdırılır, maarifləndirmə işləri aparılır. Bu tədbirlər universitetin fəaliyyət sahəsində ekoloji prinsiplərin tətbiqinə; tələbələr və işçilər arasında ekoloji mədəniyyətin ümumi səviyyəsinin, məsuliyyət hissinin yüksəldilməsinə; universitetin yeni “yaşıl” imicinin formalaşdırılmasına; ekoloji aksiyaların təşkili ilə ali təhsil müəssisəsinin beynəlxalq tanınmasına xidmət edir.

“GreenMetric” hesab edir ki, bu reytinq ilə universitet rəhbərlərinin diqqətini cəlb etməklə bütün dünyada tələbələr tərəfindən ətraf təbiətə məsuliyyətli münasibəti artırmaq olar. Reytinqin təşkilatçıları bəzi ekoloji problemlərin həlli üçün ətraf mühitin davamlı inkişafı siyasətinin aparılması zərurətinə akademik ictimaiyyətin diqqətini cəlb etməyə çalışırlar.

Reytinqdə mövqe nə qədər yüksəkdirsə, tələbələr, rəhbərlik, professorlar və müəllimlər planetin davamlı inkişafı və ekoloji vəziyyətindən bir qədər narahatdırlar. Bu o deməkdir ki, universitet ətraf mühitin qorunması üçün gələcək nəsil qarşısında öz məsuliyyətini bilir, regionun və ölkənin davamlı inkişafını təkcə elmi tədqiqatlar və tələbə təşəbbüsləri ilə deyil, həm də şəxsi nümunə kimi dəstəkləməyə hazırdır.

**Oruc MUSTAFAYEV**

# YUBİLEYİN MÜBARƏK, DOĞMA MƏKTƏB!





Uşaqlıq illərimdə baxdığım iki filmin müəllim peşəsinə yönəlməyimdə xüsusi rolu oldu: “Səni axtarıram” və “Bizim Cəbiş müəllim”. Bu əsərlərdə yaradılan Elçin və Cəbiş müəllim surətləri gələcək peşəmi seçməyimdə müstəsna rol oynadı: müəllim oldum. Bir neçə il Masallı rayonunun Qəriblər kəndində çalışdım. Sənətin sirlərini öyrəndikcə müəllim adının məsuliyyətini daha çox dərk etdim.

2004-cü ildə doğma paytaxta dönəsi oldum. Fəaliyyətimi Bakı şəhəri Səbail rayonu R. Hüseynov adına 49 nömrəli “İntellekt” məktəb-liseydə davam etdirdim. Məktəblə tanış olarkən məlum oldu ki, taleyimdə əvəzsiz rol oynamış “Bizim Cəbiş müəllim” filmi məhz bu məktəbdə çəkilib. Bu xoş təsadüfdən məmnunluq duyğusu yaşadım və daha şövqlə çalışmağa başladım. Müəyyən uğurlara imza atdım: “Ən yaxşı müəllim” müsabiqəsinin qaliblərindən biri olmağım, ölkə başçısı tərəfindən “Tərəqqi” medalı ilə təltif olunmağım sənətimə qarşı məsuliyyətimi daha da artırdı. Artıq iyirmi ildir ki, bu məktəbdə çalışıram. 95 illik zəngin tarixi olan bir məktəbdə azacıq da olsa, zəhmətimin olmasından qürur duyuram.

Bəli, bu il məktəbimiz şərəfli fəaliyyətinin 95-ci ildönümünü yaşayır. Bu münasibətlə ötən həftə akt zalında təntənəli yubiley tədbiri keçirildi. Tədbiri giriş sözü ilə açan “İntellekt” məktəb-liseyin direktoru Elza Bağırzadə məktəbin tarixindən, nailiyyətlərindən, uğurlu məzunlarından, həyata keçirilən layihələrdən ətraflı bəhs etdi. Ölkəmizdə təhsilə həmişə önəm verildiyini qeyd edən direktor rəhbərlik etdiyi təhsil müəssisəsinin əsas məqsədinin dövlətin təhsil siyasətinə töhfə vermək olduğunu xüsusi vurğuladı.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Anar Qədiməliyev çıxış edərək cəmiyyətdə məktəbin, müəllimin müstəsna rolu haqqında fikirlərini bildirdi. A.Qədiməliyev 49 nömrəli məktəbin səmərəli fəaliyyəti haqqında xoş sözlər söyləyərək pedaqoji heyətə yeni-yeni uğurlar arzuladı.

Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Elmin İmanov isə məzunu olduğu məktəblə, müəllimləri ilə həmişə fəxr etdiyini xüsusilə qeyd etdi. Onun təhsil illəri ilə bağlı söylədiyi xatirələr iştirakçılara duyğulu anlar yaşatdı.

Məktəbin şəhid məzunlarının valideynlərinin təsirli çıxışları iştirakçıları kövrəltməklə yanaşı, hamıya qürur hissi yaşatdı. Onlar məktəb kollektivinin doğma münasibətini hər an hiss etdiklərini qeyd edərək həm övladları, həm də övladlarının oxuduqları məktəblə qürurlandıqlarını söylədilər.

Sonra məktəbin tanınmış məzunlarının fəaliyyəti, doğma təhsil ocağına təbrikləri ilə bağlı videoçarx nümayiş etdirildi. Uğurlarının təməlində məhz təhsil aldıqları məktəbin danılmaz rolunu qeyd edən məzunların səsində fəxarətlə yanaşı, kövrək notların olduğu da sezilirdi.

Daha sonra şagirdlərin ifasında xalq mahnı və rəqslərindən ibarət ədəbi-bədii kompozisiya nümayiş etdirildi.

Tədbiri seyr edənlər arasında mən də var idim. Qürurlu idim: təkcə müəllim adı ilə deyil, həm də məhz 49 nömrəli məktəbin müəllimi olduğuma görə.

**Elçin MANAFOV,**
**49 nömrəli “İntellekt” liseyin ədəbiyyat müəllimi**

# “SƏN SAHİBKARSAN”

## Şagirdlərdə maliyyə savadlılığının artırılması ilə bağlı sinifdənxaric dərs

Dekabrın 13-də Respublika Fizika, riyaziyyat və informatika təmayüllü liseydə təlim-tərbiyə işləri üzrə direktor müavini Valeh Bəyalıyevin təşkilatçılığı ilə iş yuxarı sinif şagirdlərində maliyyə savadlılığının artırılması və kiçik biznesin yaradılması ilə bağlı “Sən sahibkarsan” mövzusunda sinifdənxaric dərs keçilib. Əməkdar müəllim Zabul Əhmədov tərəfindən keçirilən dərs Beynəlxalq Əmək Təşkilatının “Öz biznesini başlat və təkmilləşdir” təlim modulu əsasında hazırlanıb. Qeyd edək ki, Zabul Əhmədov 3 il bu sahədə təlimçi kimi fəaliyyət göstərib.



Dərsdə qonaq qismində Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri professor Hikmət Əlizadə, Sosial tədqiqatlar mərkəzinin təhsil sektorunun müdiri Elmin Nuri, “Məktəbguşəsi” jurnalının və saytının baş redaktoru Məzahir Məmmədli və təhsil eksperti Elşən Qafarov iştirak ediblər. Dərs zamanı şagirdlərə biznesin qurulması haqqında nəzəri biliklər verilib, şagirdlərin biznes ideyaları müzakirə edilib. İşçi qruplarda biznes planlar tərtib edilərək ən kreativ biznes planın təqdimatı keçirilib. Sonda qonaqlar dərs haqqında təəssüratlarını bölüşüblər və şagirdlərə gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.



## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# BAKI SLAVYAN UNİVERSİTETİ

### Kafedralar üzrə professor, dosent və baş müəllim vəzifələrini tutmaq üçün müsabiqə

## ELAN EDİR:

**Kafedralar üzrə professor vəzifəsini tutmaq üçün:**

1. Jurnalistika kafedrası üzrə - 1 yer;
2. Pedaqogika və psixologiya kafedrası üzrə - 1 yer.

**Kafedralar üzrə dosent vəzifəsini tutmaq üçün:**

1. Azərbaycan tarixi və multikulturalizm kafedrası üzrə - 3 yer;
2. İctimai elmlər kafedrası üzrə - 7 yer;
3. Jurnalistika kafedrası üzrə - 2 yer;
4. Pedaqogika və psixologiya kafedrası üzrə - 5 yer;
5. İbtidai təhsil kafedrası üzrə - 5 yer.

**Kafedralar üzrə baş müəllim vəzifəsini tutmaq üçün:**

1. Azərbaycan tarixi və multikulturalizm kafedrası üzrə - 1 yer;
2. İbtidai təhsil kafedrası üzrə - 6 yer.

**Qeyd:** Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində təqdim edilməlidir. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız elmi və elmi-metodiki işlərinin siyahısnı təqdim edirlər):

1. Rektorun adına ərizə;
2. Kadrlar uçotunun şəxsi vərəqəsi;
3. Tərcümeyi-hal;
4. Ali təhsil haqqında diplomun surəti;
5. Elmi dərəcə haqqında diplomun surəti;
6. Elmi ad haqqında diplomun surəti;
7. Elmi və elmi metodiki işlərin siyahısı.

**Ünvan:** Bakı AZ 1014, S.Rüstəm küçəsi-33.
**Telefon:** (012) 599-08-70, daxili nömrə - 208.



## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-64-00
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan nəşriyyatı” MMC, 9-cu mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 36915 **Sifariş** 2976
**Məsul növbətçi:** S.Kərimova



## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

### aşağıda adıçəkilən kafedralarda vakant vəzifəni tutmaq üçün müsabiqə

## ELAN EDİR:

| ss | Kafedra | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Musiqi tarixi və nəzəriyyəsi kafedrası | Kafedra müdiri | 1 |
| 2. | Ədəbiyyat və dillər kafedrası | Baş müəllim | 2 |

Müsabiqədə kafedraların profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəh., AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**




# Etibarsız sayılır



**Gəncə şəhər** 15 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Məmmədov Röyal Vaqif oğluna verilmiş E-604400 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 24 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş İsmayılov Zamin Sərdar oğluna verilmiş B-147183 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin** IX sinfini 2020-ci ildə bitirmiş Niftalıyev Məhəmməd Ələddin oğluna verilmiş C-406377 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**132-134 nömrəli təhsil kompleksinin** IX sinfini 2024-cü ildə bitirmiş Qasımov Fuad Əlihüseyn oğluna verilmiş C-912503 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Yuxarı Salahlı kənd tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Alıyeva (Mehtiyeva) Könül Əhməd qızına verilmiş E-077867 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 10 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Mirzəxanlı Murad Yaşar oğluna verilmiş E-221751 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2011-ci ildə Quliyeva Rəfiqə Mehman qızına verilmiş BB-I-018808 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 274 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Qasımova Samirə İlqar qızına verilmiş A-029611 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** texniki fənlər təmayüllü internat tipli məktəb-liseyin IX sinfini 1998-ci ildə bitirmiş Qarayeva Kəmalə Xanəhməd qızına verilmiş B-182989 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2017-ci ildə Qurbanova Aysel Şəmsəddin qızına verilmiş A-134936 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 1 nömrəli məktəb-liseyi 2014-cü ildə bitirmiş Əsgərov Bayram Abdulla oğluna verilmiş A-381615 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Ağzıbir kənd tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Abdullayeva Səbinə Həsən qızına verilmiş 019109 nömrəli ümumi orta təhsl haqqnda şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir** 39 nömrəli orta texniki peşə məktəbi (indiki Mingəçevir Peşə Məktəbi) tərəfindən 1979-cu ildə İskəndərov Mustafa Musa oğluna verilmiş 371942 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş İbrahimzadə Məhərrəm Əli Novruz oğluna verilmiş E-135376 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2022-ci ildə İbrahimzadə Məhərrəm Əli Novruz oğluna verilmiş C-138862 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Təhsil Nazirliyi** tərəfindən təsdiqlənərək 2015-ci ildə Mustafayev Anar Şahin oğluna verilmiş diplomun 00960-010246 nömrəli şəhadətnamələri itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2012-ci ildə Qasımov Əliyar Ərəstun oğluna verilmiş B-257857 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar Bağça Məktəb-Lisey Kompleksi** 2023-cü ildə bitirmiş İbadova Zəhra Samir qızına verilmiş E-536864 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Xudat şəhər 4 nömrəli məktəb-liseyi 2016-cı ildə bitirmiş Abdullazadə Səxavət Xosrov oğluna verilmiş A-530445 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Yolacaq kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Əsədov Rəvan Xanlar oğluna verilmiş B-421873 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Xanərəb kənd tam orta məktəbi 2010-cu ildə bitirmiş Hacıyev Sənan Sədrəddin oğluna verilmiş A-369814 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 98 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Abbasov Eşqin Ədalət oğluna verilmiş B-619381 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 11 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş İsmayılov Kənan Murad oğluna verilmiş A-541859 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 19 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Şəfizadə Rəvan İlham oğluna verilmiş E-749960 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar şəhər** 6 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Əskərov Zaur Vadim oğluna verilmiş E-034979 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Köhnə Alvadı kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Qasımova (Abıyeva) Sevda Rəhman qızına verilmiş B-508153 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Gündüzqala kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Xanəhmədov Qardaş Qəribəli oğluna verilmiş B-145981 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Daşkəsən rayon** Zivlən kənd ümumi orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Mehralıyeva (Məmmədova) Pərvanə Yaşar qızına verilmiş A-484969 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2021-ci ildə Cəfərov Ruslan Əli oğluna verilmiş C-129755 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 208 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Fərəcova Şərqiyyə Rəfail qızına verilmiş A-019769 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Nemətabad kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Hüseynov İlqar Akif oğluna verilmiş 287723 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 5 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Qədirova (Cəfərova) Əfsanə Soltan qızına verilmiş 513495 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 1 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Abdullayev Rüstəm Xanlar oğluna verilmiş 423044 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Ərəş kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Seyidova Samirə Mustafa qızına verilmiş 928712 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Yeni-həyat qəsəbə tam orta ümumtəhsil məktəbi 1988-ci ildə bitirmiş Orucova (Əsədullayeva) Aida Mirzəbala qızına verilmiş A-493768 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 52 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Babayev Natiq Əmrulla oğluna verilmiş B-121040 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Qazaxbəyli kənd tam orta məktəbi 2021-ci ildə bitirmiş Qocayev Azər Nadir oğluna verilmiş E-434682 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2003-cü ildə Ağalarov Rüfət Məsud oğluna verilmiş A-132106 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Göytəpə şəhər 1 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Əbdülhəsənov Rəşad Şahbaz oğluna verilmiş 06 nömrəli ümumi orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Çinarlı kənd tam orta ümumi təhsil məktəbi 2019-cu ildə bitirmiş Ağazadə Möhlət Hikmət oğluna verilmiş E-255799 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli məktəb-liseyi 2011-ci ildə bitirmiş Əliyeva Yəmən Salman qızına verilmiş A-025719 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 100 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Qafarlı Elvir Azad oğluna verilmiş A-297885 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 220 nömrəli məktəb-liseyi 2014-cü ildə bitirmiş Rüstəmov Elvin Zabil oğluna verilmiş A-300686 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Əliyev Vüsal Əlşad oğluna verilmiş A-230532 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Yuxarı Mərcanlı kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Turabova Sevinc Eldar qızına verilmiş A-596824 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 10 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Rüstəmova Ülkər Tahir qızına verilmiş A-029822 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Rəsullu kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Cəfərova Təhminə Rəfael qızına verilmiş A-254198 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Quşçu kənd tam orta məktəbin IX sinfini eksternat qaydada 2016-cı ildə bitirmiş Sadıqov Bahadur Məmməd oğluna verilmiş A-665060 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 127 nömrəli tam orta məktəb tərəfindən 2013-cü ildə Bayramov Rövşən Namid oğluna verilmiş A-188798 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Hacıqabul şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Nuriyeva Sevinc Rasim qızına verilmiş 120183 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2006-cı ildə Şabanova Gülmayə Qurban qızına verilmiş BB-I-005454 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci** tərəfindən 2024-cü ildə Təqizadə Çiçək İmran qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Xok kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Bağırov Firdovsi Lətif oğluna verilmiş A-162741 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2022-ci ildə Qədirova Rəhimə Elvin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Qobu qəsəbə 2 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Dadaşova Xanım Böyükağa qızına verilmiş B-344495 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci** tərəfindən 2008-ci ildə Əliyev Rafiq Akif oğluna verilmiş BB-II-067434 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Əsədova Elşanə Elşən qızına verilmiş C-074863 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2005-ci ildə Salmanova Mərziyə Səbuhi qızına verilmiş B-041457 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Aşirov Qulu Adil oğluna verilmiş E-206133 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 3 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Feyziyev Röyal Şamil oğluna verilmiş C-412312 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2018-ci ildə Camalova Gülnar Qəzənfər qızına verilmiş C-000920 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 6 nömrəli tam orta məktəbi eksternat qaydada 2018-ci ildə bitirmiş Sadıqov Bahadur Məmməd oğluna verilmiş E-175905 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**160 nömrəli Klassik gimnaziyanı** 2013-cü ildə bitirmiş Pənahov Polad Azər oğluna verilmiş A-189517 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Yenikənd kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş İsayev Roman Sahib oğluna verilmiş A-560145 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 141 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Babayev Mirzə Əli oğluna verilmiş E-367953 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər qəsəbə tam orta məktəbi 2002-ci ildə bitirmiş Namazova Xalidə Vilayət qızına verilmiş A-590899 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Qazaxlar kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Qurbanov Nizami Miri oğluna verilmiş 601583 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 275 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Ağayev Raul Nazim oğluna verilmiş E-568002 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər Cırdaxan kənd tam orta məktəbi 1992-ci ildə ildə bitirmiş Talıbov (Əliyev) Eldəniz Talıb oğluna verilmiş 455494 nömrəli tam orta təhysil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab şəhər** 2 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş İsrəfilov Telman Hacaqa oğluna verilmiş 477228 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 42 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əzimzadə Xəyal Vahid oğluna verilmiş B-502597 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 1 nömrəli ümumi orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş İmanova (Mirzəyeva) Xoşqədəm Şahbaz qızına verilmiş B-256086 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsz sayılır.

**Goranboy rayon** Qaradağlı kənd tam orta məktəbi 2020-ci ildə bitirmiş Qaraşov Qurban Tərviz oğluna verilmiş E-326610 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Hacıyev Elman Elnur oğluna verilmiş E-229662 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Köhnə Alvadı kənd tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Ağayeva (Əbülhəsənli) Səmiyyə Famil qızına verilmiş A-570667 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.